# Addım-addım nüvə savaşına doğru...


Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

N 27 (3366) 5 avqust / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qəpik


ANA XƏBƏR



## Xırdalan sakinləri susuz qalıb

# Ağ Evdə Qafqazın taleyi həll olunacaq

## Bu həftə Vaşinqtonda baş tutacaq Əliyev-Paşinyan görüşündə ölkələrimiz arasında sülh sazişi imzalana bilər



7

GÜNÜN NƏBZİ

Siyasət

## Ərdoğan Kiyevə gedir



"Bu səfər ciddi səylər tələb edir, çünki onun həyata keçirilməsinə mane olan bir çox məsələlər var"

9

Cəmiyyət

## Kosmosda səssiz müharibə başlayır

Çin ABŞ-nin "Starlink" peyk şəbəkəsinə vura bilər

9

Fakt

## Bələdiyyə sədri saxtakarlıqda ittiham olunur

Qarabağ qazisinin ailəsinə məxsus torpaq sahəsini saxta sənədlərlə öz adına keçirib...

4

Layihə

## 30 deputata müraciət etdi, hamısı susdu...

Elşad Dadaşlı: "Bu allahsızlığın aradan qaldırılması üçün ömrümün sonuna kimi çalışacağam"

2

Ölkə

## 6 uşaqla bir otaqda yaşayırlar, amma...

Sosial yardım ala bilməyən Quba sakinindən nazirə müraciət

7

Tibb

## İnsan Alverinə qarşı Beynəlxalq Mübarizə...



6

Araşdırma

## "Allaha əmanət olun..."

Son sözünü müharibənin sonuncu günlərində demişdi, sonuncu gün Şəhid oldu...



11

Cəmiyyət

## Şəhid analarından həmdərdlərinə çağırış

"Balalarınızın ruhunu incitməyin; çayxanalara, kababxanalara şəhid övladlarınızın şəkilləri ilə getməyin, ora ziyarətgah deyil"

*44 günlük Qarabağ müharibəsindən 5 ilə yaxın vaxt keçsə də, bu savaşda yaşananlar dünən-srağagün baş vermiş hadisələr kimi xatirələrdədir. İstər hərbçilərimizin qəhrəmanlığı, istər də xalqımızın Ali baş komandanın ətrafında bir nəfər kimi birləşməsi qürurverici anlar, tariximizin bir parçası olaraq heç zaman yaddaşlardan silinməyəcəkdir.*

3

Ölkə

## Gürcüstanda azərbaycanlı sürücüyə 1 ildir zülm edilir

Yük maşını ilə keçərkən körpü uçdu, avtomobil qəzaya düşdü, içindəki mallar oğurlandı, üstəlik 61 min lari də cərimə edildi...

*Masallı rayon sakini İsrafilov Aqil İmran oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə səlahiyyətli qurumlardan kömək istəyir: "Mən, İsrafilov Aqil İmran oğlu, yazaraq qeyd edim ki, keçən il, 03.01.2024-cü il tarixində Türkiyənin Qəbzə vilayətindən Çeçenistana şokalad yükü vurub, tranzit olaraq Gürcüstanı keçmək...*

2

# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

N 27 (3366) 5 Avqust / 2025-ci il    Həftədə 1 dəfə çıxır    Qiymәti: 60 qəpik


# 2026 dünya üçün ən təhlükəli il olacaq...

## Məşhur kahinin proqnozları gündəm oldu

***Polşalı kahin Kşiştof Yaçkovskinin 2026-cı ilə bağlı kəhanətləri gündəm olub.***

Hurriyyet.az xəbər verir ki, "Radio Eska" onun proqnozlarından sitat gətirib.

O, 2026-cı ili qaçqınlarla bağlı problemlər, həmçinin terror aktları və inqilablar riskinin yüksək olması səbəbindən dünya üçün ən təhlükəli il adlandırıb.

Yaçkovskiyə görə, xüsusilə də Polşa 2026-cı ildə ən çətin dövrlərdən birini yaşayacaq. O, siyasətçilərin vətəndaş müharibəsi qorxusundan ölkədən qaçacaqlarını proqnozlaşdırıb. Bir qrup siyasətçi tərəfindən dövlətə xəyanət və sadə vətəndaşların aldadılması halları da baş verəcək.

Onun proqnozlarına görə, 2026-2028-ci illərdə ölkə prezidentsiz qala, hətta Polşa bəzi torpaqlarını da itirə bilər.



## Əyləncə səhifəsi



# Maykl Ceksonun qızı nişanlısından ayrıldı

***Pop kralı Maykl Ceksonun həyat yoldaşı Debbi Roedən olan kiçik qızı - aktrisa, model və müğənni Peris-musiqi prodüseri Castin Lonq ilə nişanını ləğv edib.***

Lent.az-ın xarici mediaya istinadla xəbərinə görə, 27 yaşlı ulduz bu barədə internetdə yayılan şayiələr dalğasından sonra X-dəki (keçmiş Twitter) bloqunda məlumat verib. Bir gün əvvəl paparassilər onu Malibuda çəkiblər - fotoda Peris çox depressiyaya düşmüş görünüb və gözləri yaşla küçələrdə gəzib.

Bəzi sosial şəbəkə istifadəçiləri dərhal müğənninin narkotikdən beş illik imtinadan sonra yenidən istifadə etdiyini güman etməyə başlayıblar. Lakin Paris bu dedi-qoduları kəskin bəyanatla dərhal rədd edib.

"Bunlar ayrılıqdan sonra göz yaşlarıdır. Yenə lazımsız şeylər uydurursunuz", - dedi-qodulara qısa və emosional cavab verib.

Maraqlıdır ki, Peris iyulun əvvəlində "Instagram" səhifəsində Castinlə tender fotolarını paylaşıb. Cütlük Ceksonun qastrol konsertlərinin birində səhnə arxasında qucaqlaşıb və çimərlikdə dincəliblər.

Bu, sevgililərin ciddi olduğu görüntüsü yaradıb. Onların romantikası 2022-ci ildən davam edirdi və 2024-cü ilin dekabr ayının əvvəlində cütlük romantik fotolarla nişanlandıqlarını elan ediblər.

Peris və Castin niyə ayrılıb - cütlük hələ şərh verməyib. Ancaq pərəstişkarları şərhlərdə qızı dəstəkləyirlər.



# 100 yaşını paraşütlə tullanaraq qeyd etdi

***ABŞ sakini olan 100 yaşlı qadın ad gününü özünəməxsus şəkildə qeyd edib.***



Hurriyyet.az xəbər verir ki, Missuri ştatının Vebb Siti şəhərindən olan Peqqi Volf yubileyi şərəfinə paraşütlə tullanıb.

Qadın üç kilometr hündürlükdən paraşütlə tullanaraq onu təbrikə gələn dostlarını təəccübləndirib.

Uçuş zamanı Volf bir ayaqqabısını itirsə də, buna heç üzülməyib.

Qeyd edək ki, Volf ilk dəfə paraşütlə 92 yaşında tullanıb.

Amerikalı qadın hesab edir ki, o, üç sadə qayda sayəsində bu qədər uzun yaşayıb. Bunlar aktiv həyat tərzi sürmək, düzgün yemək və spirtli içkilərdən çox istifadə etməməkdir.

# Azərbaycanda 13 il qız olan yeniyetməni əməliyyatla oğlan etdilər



***Azərbaycanda hər kəsi heyrətə gətirən nadir və psixoloji cəhətdən həssas hadisə baş verib.***

13 il boyunca ailəsi və cəmiyyət tərəfindən qız uşağı kimi tanınan azyaşlı, gerçək kimliyini kəşf etdikdən sonra həyatını tamamilə dəyişdirib.

Milli.Az xəbər verir ki, yeniyetmə uzun müddətdir daxili psixoloji narahatlıqlar yaşayırmış və bu səbəbdən bir neçə peşəkar psixoloqla görüşdürülüb. Mütəxəssislərlə aparılan dərin söhbətlər nəticəsində onun əslində özünü oğlan kimi hiss etdiyi və yanlış cinsiyyətlə böyüdüyü üzə çıxıb.

Ailə və həkimlərin qərarı ilə azyaşlıya tibbi yardım göstərilib və o, cinsiyyət dəyişdirmə əməliyyatı olunaraq rəsmi olaraq oğlan cinsiyyətini qəbul edib. Hazırda uşağın vəziyyətinin stabil olduğu və psixoloji dəstəyin davam etdiyi bildirilir.

Bu hadisə cəmiyyətin diqqətini yenidən gender kimliyi, psixoloji sağlamlıq və azyaşlıların özünü tanıma prosesinə yönəldib. Mütəxəssislər bu kimi hallarda ailələrin anlayışlı və dəstəkləyici olmasının uşağın psixi sağlamlığı üçün həyati əhəmiyyət daşıdığını bildirirlər.

# Əmrahın gizli sərvəti üzə çıxdı...

***Müğənnilikdən qazandığını daşınmaz əmlaka investsiya edən Əmrahın sərvəti ağızları açıq qoyub.***

Lent.az xarici mediaya istinadən xəbər verir ki, sənətçinin İstanbul və Bodrumda 300-dən çox mənzili olduğu, bu əmlaklardan ayda 10 milyon lirəlik kirayə gəliri əldə etdiyi iddia olunur.

Səhnə və televiziya fəaliyyətindən illərlə qazandığı vəsaiti ağıllı şəkildə dəyərləndirən Emrah, daşınmaz əmlak yatırımları ilə sərvətini artırıb.

Dubaydan 3,5 milyon dollarlıq ev alan sənətçi, İstanbul və Bodrumda 300-dən çox mənzilə sahibdir. Bu mülklərin ümumi aylıq kirayə gəlirinin 10 milyon lirəyə çatdığı deyilir.

İstanbulda 3 milyon dollara aldığı idman kompleksi ilə yanaşı, həmin layihədə 12



mağaza və bir dubleks mənzilə də malikdir. Bodrumda isə 8 milyon lirə dəyərində yeni bir sərmayəsi ilə diqqət çəkən Əmrah, musiqi və seriallardan əldə etdiyi gəliri daşınmaz əmlakla dəyərləndirərək gəlirini çoxaldıb.


**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi

# Ağ Evdə Qafqazın taleyi həll olunacaq

## Bu həftə Vaşinqtonda baş tutacaq Əliyev-Paşinyan görüşündə ölkələrimiz arasında sülh sazişi imzalana bilər

***Əlbəttə, regionda baş verən proseslər hər zaman Cənubi Qafqazı özünün "arxa baxçası" hesab edən Rusiyanın maraqları çərçivəsində deyil. Halbuki, regiondakı sabitlik istər siaysi, istər də iqtisadi baxımdan hər bir ölkənin, o cümlədən də Rusiyanın maraqlarına xidmət edir. Amma Kreml tarixən iğtişaşlardan "qidalandığı" kimi, bu gün də Azərbaycanla Rusiya arasında sülh sazişinin imzalanması Moskvanın çıxarları ilə uzlaşmır...***

Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan bu həftənin cümə günü Vaşinqtonda görüşə hazırlaşırlar.

Hurriyyet.az xəbər verir ki, bu barədə Haqqin.az saytı məlumat yayıb. Qeyd olunur ki, ABŞ paytaxtında keçiriləcək görüşün məqsədi iki ölkə arasında çoxdan gözlənilən sülh sazişinin imzalanmasıdır. Bu barədə Vaşinqtondakı mənbələr məlumat yayıblar.

Bildirilir ki, ABŞ Prezidenti Donald Tramp cümə günü Azərbaycan və Ermənistan liderlərini Ağ Evdə qəbul edəcək.

Xatırladaq ki, tərəflər son dəfə iyulun 10-da BƏƏ-nin paytaxtı Əbu-Dabidə birbaşa danışıqlar apırıblar. Həmin görüşdə sülh sazişi mətninin paraflanması - yəni imzalanmayaq, amma razılaşdırılmış sənədin ilkin təsdiqi - müzakirə olunub. Azərbaycanın mövqeyinə əsasən, yekun sazişin imzalanması üçün Ermənistan Konstitusiyasına dəyişikliklər edilməli və Qarabağa dair iddialardan imtina olunmalı, eyni zamanda ATƏT-in Minsk Qrupunun buraxılması sənədə daxil edilməlidir.

Lakin Ermənistan Konstitusiyasında qısa müddət ərzində dəyişikliklərin edilməsi real görünmür. Buna görə də rəsmi Bakı mart ayında razılaşdırılmış sənədin paraflanması variantını irəli sürüb. Hazırda hələlik dəqiq bilinmir ki, Əliyev və Paşinyan Vaşinqtona paraflama üçün, yoxsa yekun sülh sazişini imzalamaq üçün dəvət olunublar.

ABŞ rəsmiləri son günlərdə verdikləri açıqlamalarda Azərbaycan və Ermənistanın sülhə çox yaxın olduğunu bildirirlər. ABŞ Senatının respublikaçı üzvü Stiv Deyns "The Wall Street Journal"da dərc olunan məqaləsində Tramp administrasiyasının bu prosesdə ciddi irəliləyiş əldə etdiyini vurğulayıb.

"Prezident Tramp Ermənistan və Azərbaycan arasında Cənubi Qafqazda sülh sazişi bağlamağa çox yaxındır. Bu, region və beynəlxalq sabitlik üçün böyük uğur, həm də iqtisadi faydaları uzaq coğrafiyalara qədər uzanan əlamətdar hadisə olar", - deyə Deyns yazıb.

Senatorun sözlərinə görə, hər iki ölkə hazırda Rusiyanın bölgədəki dominant rolundan çıxmağa çalışır və ABŞ-nin prioritetlərinə uyğun müstəqil gələcək qurmaq istəyir.

Prezident Tramp da iyulun 18-də bəyan edib ki, tərəflər "sülhə çox yaxındır". "Biz orada möcüzə yaratdıq. Saziş demək olar ki, hazırdır", - deyə o bildirib.

Bundan başqa, Vaşinqtonun təşəbbüsü ilə təqdim olunan Zəngəzur dəhlizi planı da masadadır. Plana əsasən, Ermənistan ərazisindən keçən 42 kilometrlik kommunikasiya xətləri amerikalı özəl şirkət tərəfindən idarə olunacaq. Ermənistan tərəfi bu təklifi qəbul etməyə hazır görünür. Bu səbəbdən Ağ Evin həm də Zəngəzur dəhlizi ilə bağlı razılaşmanı elan edə biləcəyi ehtimal olunur.



### Qafqazın yeni xəritəsi...

Şübhəsiz, Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın Vaşinqton görüşünə bir neçə aspektdən yanaşmaq lazımdır. Birincisi, bu görüş zamanı sülh sazişinin imzalanması hər iki ölkə üçün mühüm məsələ olmaqla yanaşı, həm də Cənubi Qafqazda yeni siyasi düzən formalaşdıracaq. Ən önəmlisi isə odur ki, bu dəfə Qafqazın taleyi Rusiyasız müəyyən olunur. Deməli, bu görüşdən gerçək nəticələr gözləmək olar. Ən azı ona görə ki, artıq ortada hər zaman pozucu mövqeyi ilə seçilən Kremlin "barmağı" olmayacaq. Təkcə bu baxımdan Azərbaycan və Ermənistan liderlərinin ABŞ səfərinə böyük ümidlə yanaşmaq olar.

İkincisi, bu görüşün Vaşinqtonun patronajlığı altında keçirilməsi də ayrıca diqqətə alınmalıdır. Söhbət ondan gedir ki, artıq regionda, xüsusilə də post-sovet məkanındakı münaqişələr yalnız ABŞ-ın nəzarəti altında müzakirə müstəvisinə çıxarılır. Eynilə, son vaxtlaradək Qarabağ probleminin həlli Minsk Qrupu formatı çərçivəsində Rusiya, Fransa və ABŞ "üçlüyünün" vasitəçiliyi ilə masaya daşınırdısa, artıq ortada Minsk Qrupu olmadığı kimi, Rusiya və Fransanın varlığı da mövcud deyil. Əlbəttə, indi faktiki olaraq Qarabağ problemi də yoxdur, bu məsələni 2020-ci ildə Azərbaycan Ordusu "Dəmir yumruq"la həll etdi. Amma hər bir müharibənin sonu sülhlə nəticələndiyi kimi, Azərbaycanla Ermənistan arasında da sülh sazişinə ehtiyac var. Bu, həm də regionda daimi sabitliyin qarantı deməkdir.

Əlbəttə, regionda baş verən proseslər hər zaman Cənubi Qafqazı özünün "arxa baxçası" hesab edən Rusiyanın maraqları çərçivəsində deyil. Halbuki, regiondakı sabitlik istər siaysi, istər də iqtisadi baxımdan hər bir ölkənin, o cümlədən də Rusiyanın maraqlarına xidmət edir. Amma Kreml tarixən iğtişaşlardan "qidalandığı" kimi, bu gün də Azərbaycanla Rusiya arasında sülh sazişinin imzalanması Moskvanın çıxarları ilə uzlaşmır. Bu səbəbdən, son günlərdə Rusiyadan Azərbaycan istiqamətində qarışıq və çatlaq səslərin eşidilməsi heç də təsadüf deyil.

### Tehran niyə sabitlik istəmir?

Şübhəsiz, regionda Rusiyanın "yolunu davam etdirən" daha bir ölkə də var. Təbbi ki, söhbət İrandan, daha da dəqiq desək molla rejimindən gedir. Bu gün İran rejimini narahat edən ən böyük məsələ Zəngəzur dəhlizinin açılmasına hazırlıq getməsidir. Bu ərəfədə bəzi mollaların Tehrandan Azərbaycana qarşı "hücumlar" etməsi də məhz bununla bağlıdır. Əslində, molla rejimi də artıq "qatarın getdiyinin" fərqindədir. Bunu İran prezidenti Pezeşkian çoxdan qəbul edib. Amma İranda siyasi proseslər Xameneyinin "cübbəsi altında" həll olunduğundan, molla rejiminin ölkəmizə qarşı aqressiyası getdikcə artmaqdadır. Bunun nə vaxtadək davam edəcəyi bəlli olmasa da, yaxın günlərdə istər Rusiyada, istər də İranda çoxlarının səsinin batacağı istisna deyil. Ən azı ona görə ki, artıq ortada ciddi siyasi iradə var və sülhə gedən yolun geriyə dönüşü yoxdur.

Sonda onu da qeyd edək ki, Əliyev və Paşinyanın Vaşinqton görüşü bir istiqamətdən də olduqca mühümdür. Yəni bu görüş həm də onu deməyə əsas verir ki, Kreml rəhbərliyinin düşündüyündən fərqli olaraq, artıq Cənubi Qafqazda aparıcı söz Rusiyanın olmayacaq. Görünən odur ki, Azərbaycan bu regionada öz mövqelərini gücləndirməklə, qardaş Türkiyə ilə yanaşı, həm də sülhün təminatçısı roluna sahiblənmək üzrədir. Zənnimizcə, regionumuzda sabitliyə çoxdan ehtiyac vardı və artıq bunun alternativi ola bilməz.

***"Hürriyyət"***

# Addım-addım nüvə savaşına doğru...

## Kremlin nüvə təhdidləri Trampı nələrə təhrik edir?



***Rusiyanın sabiq Prezidenti və hazırkı Təhlükəsizlik Şurası katibinin müavini Dmitri Medvedevin qeyri-adekvat, qızışdırıcı nüvə təhdidləri cavabsız qalmayıb. Xarici KİV-lərin yazdığı kimi, ABŞ Prezidenti Donald Tramp faktiki olaraq “ABŞ Rusiya ilə nüvə müharibəsinə tam hazırdır” bəyanatını verib.***

Bundan öncə Tramp Rusiyanın təhdidlərilə bağlı iki nüvə sualtı qayığının müvafiq nöqtələrdə yerləşdirildiyinə dair bəyanat vermişdi. Tramp jurnalistlərin bununla bağlı sualına cavab olaraq deyib ki, ABŞ Rusiyadan gələn nüvə təhdidlərinə cavab verməyə hazırdır: ”Biz bunu etməli olduq. Sadəcə diqqətli olmalıyıq. Təhdid edildi və biz bunun yersiz olduğunu düşündük. Ona görə də mənim ehtiyatlı olmağım lazımdır. Mən bunu xalqımızın təhlükəsizlik maraqlarına əsaslanaraq edirəm. Rusiyanın keçmiş prezidenti tərəfindən təhdid səsləndirilib”.

O, ABŞ-nin “insanları qoruyacağını” vurğulayıb: ”Medvedev nüvə silahından danışdı, əgər nüvə silahından danışırıqsa, biz hazır olmalıyıq. Biz tamamilə hazırıq”.

Xatırladaq ki, hələ 12 günlük İran-Israil müharibəsi zamanı Medvedevin İrana nüvə silahının ötürülməsinin mümkünlüyünə eyham vurmasından və ardınca ABŞ-nin Rusiya-Ukrayna müharibəsinə son qoyulması ilə bağlı ultimatumunu ələ salmasından sonra Trampla onun arasında mübahisə başlanıb. Amerika lideri buna cavab olaraq Medvedevi “uğursuz prezident” adlandırıb və onu “sözlərinə diqqət yetirməyə” çağırıb. Tramp daha sonra Medvedevin açıqlamalarına görə iki nüvə sualtı qayığın “müvafiq bölgələrə” göndərilməsini əmr edib: “Bəli, onlar (sualtı qayıqlar - red.) Rusiyaya daha yaxındırlar. Biz həmişə hazır olmaq istəyirik, ona görə də regiona iki nüvə sualtı qayığı göndərdim”.

Bayden administrasiyasından fərqli olaraq, Medvedevin özü kimi başıpozuq və sərsəm açıqlamalarına ciddi yanaşan Tramp onun “ehtiyatsız və qızışdırıcı bəyanatları”nı pisləyərək, nüvə sualtı gəmilərilə bağlı belə bir addımı atmağa borclu olduğunu qeyd edib. Bəziləri Trampın bu reaksiyasını təsadüfi saymır və onun Medvedevin yersiz təhdidlərindən Rusiyaya yerini göstərmək üçün bəhanə kimi istifadə etdiyini bildirirlər.

Göründüyü kimi, Putin Rusiyasının Ukraynadakı işğalçılıq müharibəsini heç cür dayandırmaq istəməməsi, üstəlik, bütün dünyanı nüvə savaşı ilə təhdid etməsi nüvə eskalasiyasını və nüvə müharibəsi təhlükəsini xeyli artırıb.

Bu arada Britaniyanın “The Daily Telegraph” qəzeti Trampın məlum açıqlamasını şərh edərkən, real təhlükənin heç də uzaqda olmadığını qeyd edib: ”Hətta Soyuq müharibə illərində belə heç bir ABŞ Prezidenti açıq şəkildə Rusiya sularına doğru nüvə sualtı qayıqları göndərməmişdi. Heç bir ABŞ lideri buna cəsarət etməmişdi”.

Qeyd edək ki, artıq mütəxəssislər Trampın nəzərdə tutduğu sualtı nüvə qayıqlarının imkanları, texniki xarakteristikaları barədə şərhlər verməyə başlayıblar. Onlar bildirirlər ki, həmin qayıqlardan atıla biləcək nüvə başlıqlarının Moskvanı vurması üçün 8-12 dəqiqə vaxt lazımdır. Rusiya HHM sistemləri bu raketləri yalnız onlar buraxıldıqdan 3-4 dəqiqə sonra görə bilirlər və deməli, cavab üçün 5 dəqiqə vaxtları qalır. Bu müddət isə Putinə xəbər verilməsi, onun cavab əmri verməsi və digər texniki hazırlıq işləri üçün olduqca azdır. Mütəxəssislərin artıq bu cür ssenariləri müzakirəyə çıxarmasının özü bir yandan məyusedicidirsə, digər yandan da real təhlükələrdən xəbər verir.

Hazırda bir tərəfdə Rusiyanın başındakı qana susamış, hər gün yüzlərlə, minlərlə insanın ölümünə səbəb olan işğalçılıq müharibəsini davam etdirən, hər tərəfə təhdid yağdıran, cəzasızlıqdan başını itirmiş putinlər, medvedevlər, digər tərəfdə isə psixi problemlərilə onlardan geri qalmayan, yaşı 80-i haqlamış, sözü ilə əməli uyğun gəlməyən və sabah nə edəcəyi bəlli olmayan Tramp var.

Dünyanın taleyinin bələlərinin əlində olması nə qədər acınacaqlı görünürsə, təəssüf ki, nüvə savaşı təhlükəsi də getdikcə bir o qədər real görünməyə başlayır.

***C.Məmmədli***



# Kosmosda səssiz müharibə başlayır

## Çin ABŞ-nin "Starlink" peyk şəbəkəsinə vura bilər

***Dünyanın ən böyük peyk şəbəkəsi olan ABŞ-yə məxsus ”Starlink” Çin hökumətinin hədəfinə düşüb. Pekin ”SpaceX”-in idarə etdiyi bu şəbəkənin hərbi məqsədlər üçün istifadə edildiyini əsas gətirərək, lazer silahlarından istifadə də daxil olmaqla bütün hücum planlarını araşdırır.***

Bu barədə ”Associated Press” nəşri məlumat yayıb.

Məlumata görə, çinli alimlər və hərbi strateqlər, ”Starlink” şəbəkəsini funksiyasız etmək üçün intensiv çalışmalar aparırlar.

Çinin üzərində çalışdığı ən diqqətçəkən texnologiyalar arasında yüksək güclü, istiqamətləndirilmiş enerji lazer silahları var. Bu lazerlər həm quru, həm də sualtı platformalardan atıla bilər və ”Starlink” peyklərinə birbaşa zərbə vurmağı nəzərdə tutur.

Qeyd olunur ki, bundan əlavə, Çin “qatil peyklər” adlandırılan, ionlarla təchiz olunmuş və ”Starlink” terminallarına fiziki müdaxilə edə biləcək peyklər üzərində də işləyir. Kimyəvi aşındırıcı maddələr vasitəsilə peyklərin günəş panellərinə zərər vermək planları da gündəmdədir.

Bundan əlavə qeyd olunur ki, Çin ”Starlink”-ə rəqib olaraq ”Guowang və Qianfan” adlı milli peyk internet proqramları üzərində işləyir. Lakin indiyə qədər yalnız 100-dək peyk orbitə buraxılıb. Gələcəkdə bu sayı 15000-ə çatdırılması planlaşdırılır.

# Ərdoğan Kiyevə gedir

## "Bu səfər ciddi səylər tələb edir, çünki onun həyata keçirilməsinə mane olan bir çox məsələlər var"



***Kiyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səfərinə hazırlaşır. Bu səfərin əsas mövzusu iki ölkə arasında azad ticarət sazişinin ratifikasiyası ola bilər.***

Bunu RBC-Ukraynaya müsahibəsində Ukraynanın Türkiyədəki səfiri Nəriman Cəlal deyib.

Onun sözlərinə görə, Ərdoğana dəvəti şəxsən Ukrayna Prezidenti Volodimir Zelenski çatdırıb və Türkiyə lideri Kiyevə səfərə hazır olduğunu təsdiqləyib. Lakin Cəlalın qeyd etdiyi kimi, səfərin həyata keçirilməsi mövcud siyasi və təşkilati manelərə görə ciddi səylər tələb edir.

Səfərin konkret tarixləri hələlik açıqlanmayıb, lakin Ukrayna tərəfi onun yaxın vaxtlarda baş tutacağına ümid edir.

”Bu səfər ciddi səylər tələb edir, çünki onun həyata keçirilməsinə mane olan bir çox məsələlər var”, - səfir qeyd edib.

Danışıqların mərkəzi mövzularından birinin azad ticarət sazişinin ratifikasiyası olacağı gözlənilir. Cəlalın sözlərinə görə, sənəd həm Ukrayna-Türkiyə tərəfdaşlığının möhkəmləndirilməsi, həm də ümumilikdə Ukrayna biznesi üçün strateji əhəmiyyət kəsb edir: “Belə bir addımın təkcə praktiki deyil, həm də simvolik əhəmiyyəti olacaq”.



# Gürcüstanda azərbaycanlı sürücüyə 1 ildir zülm edilir

***Yük maşını ilə keçərkən körpü uçdu, avtomobil qəzaya düşdü, içindəki mallar oğurlandı, üstəlik 61 min lari də cərimə edildi...***

Masallı rayon sakini İsrafilov Aqil İmran oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə səlahiyyətli qurumlardan kömək istəyir:

"Mən, İsrafilov Aqil İmran oğlu, yazaraq qeyd edim ki, keçən il, 03.01.2024-cü il tarixində Türkiyənin Qəbzə vilayətindən Çeçenistana şokalad yükü vurub, tranzit olaraq Gürcüstanı keçmək məcburiyyətində qaldım. Mən Gürcüstana Batum şəhərinə daxil oldum. Gecə saatları olduğu üçün avtoparka getmək məqsədilə körpünü keçmək məcburiyyətində qaldım. Lakin körpüyə daxil olarkən anidən körpü çökməyə başladı və mənə məxsus olan "Skanya" 77-ET-652 dövlət nömrə nişamlı yük maşınım qəza uğradı. Dərhal dövlət qaynar xəttinə müraciət edib, baş verən qəza haqda məlumat bildirdim.

Az sonra yol patrul xidmətinin əməkdaşları hadisə yerinə gələrək, baxış keçirib, qəza ilə bağlı məndən izahat aldılar. Daha sonra mənə Qoniya polis idarəsinə getməli olduğumu bildirdilər. Yenidən dövlət polis xidmətində sorğu-sual keçirib, cərimə yazdılar. Dedilər ki, sabah sizə dövlət tərəfindən lazım olan dəstəyi yönəldib, qəzaya uğrayan maşını da hadisə yerindən çıxaracağıq.

Sabahı gün yenidən polis bölməsinə müraciət etdikdə, əks cavab aldım. Belə ki, "get özün işini həll et", - dedilər.

Təzədən Batum şəhərinə gəlib, kranla danışıb maşını düşdüyü yerdən çıxartdırdım. Maşına baxış keçirən zaman gördük ki, içindəki mallar oğurlanıb. Təkrar polisə müraciət etdim. Polis də oğurluğun olduğunu təsdiqlədi. Şəkillər çəkdilər, sənədlərin arasına qoydular. Gömrük polis işçiləri yerdə qalan malı sayıb, sənədə imza atdıraraq, bu qədər malın qaldığını bildirdilər. Dili bilmədiyim üçün bütün sənədlərə qol çəkdim. Sən demə, burada mənə yazılan 61 000 lari olan cərimə vərəqəsinə qol çəkdiriblər.

Əlimdə gömrük sənədlərim var, yol sığorta sənədim var. Hansı səbəbə görə mənə bu qədər cərimə yazılıb, bilmirəm. Yol polisi mənə dedi ki, körpü sındığı üçün sığorta keçərsiz sayılır. Körpü sınıb, avtoqəza baş verməyib.

Beləliklə, artıq 1 ildən çoxdur ki, Gürcüstanda işimə heç bir qurum baxmır. Sizin sayt və qəzet vasitəsilə səlahiyyətli qurumlardan kömək istəyirəm. 1 ildən artıqdır ki, Gürcüstanda qalmışam. Məhkəməni udduğum halda belə, vergi etiraz edir. Məhkəməni uda bilməzsən deyir. Xahiş edirəm kömək edin".

***Jalə FAMİLQIZI***

***Redaksiyadan: Mövzunu diqqətdə saxlayacağıq. Aidiyyəti qurumların da mövqeyini dərc etməyə çalışacağıq.***

# 30 deputata müraciət etdi, hamısı susdu...

## Elşad Dadaşlı: "Bu allahsızlığın aradan qaldırılması üçün ömrümün sonuna kimi çalışacağam"

***Bakı şəhəri, Yeni Yasamal-2, ev 1, mənzil 191 sakini, "Əmək Veteranı Dadaşlı Elşad Sabir oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçinin məktubunu olduğu kimi dərc edirik:***

"Mən, Dadaşlı Elşad Sabir oğlu, yazarq xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Şikayət məktublarım ünvanladığım səlahiyyət sahiblərinə şəxsən çatdırılmadan və bəlkə də oxunmadan, bir qayda olaraq "cavablandırıldığı" üçün, bilavasitə haqsızlıqda əməyi və maraqları olan bir nazirliyə yönləndirildiyinə görə, aldığım "cavab"ların da qərəzli, özünü haqlı çıxarmaq üçün yazıldığını görmək elə də çətin deyildır.

01.01.2006-cı ildən qüvvədə olan "Əmək pensiyaları haqqında" Qanunun VII fəslindəki haqsızlıqla əlaqədar konkret təkliflərlə müvafiq nazirliyə, Milli Məclisə, Nazirlər Kabinetinə, Prezident Administrasiyasına və digər əlaqədar qurumlara artıq 125 rəsmi müraciətim olub.

Həmin qanun mənim kimi öz dövlətinə əsas xidmətləri 2006-cı ilədək olmuş minlərlə mütəxəssisə qarşı haqsızlıqdır, allahsızlıqdır, hüquqlarının pozulmasıdır. 48 il öz dövlətinə sədaqətlə xidmət etmiş bir "Əmək Veteranı" kimi, pensiyaya çıxanda 2006-cı ilədək olan dövr üçün strateji dövlət qurumlarındakı, əsasən məsul rəhbər vəzifələrdə 6 ili dövlət qulluğu olan 27 il fasiləsiz stajımı, ömründə 1 il o dövlətə işləməyənlərlə və işləyənlərin isə vəzifələrinə fərq qoymadan, nazirliyin utanmadan, minnət qoymaqla "hədiyyə" adlandırdığı hər ilə 306 manat şərti ilə hesablanmış 169 manatı ədalətsiz, təhqir hesab edirəm və qəbul edə bilmirəm.

Hesab edirəm ki, mənim kimi mütəxəssislərin 2006-cı ilədək pensiyalarının həmin vaxtın qanununa görə hesablanması daha doğru və ədalətli olardı.

2006-cı ilədək ödənilmiş sosial sığorta haqlarının məbləği ilə bağlı "dürüst məlumatların olmaması" bəhanəsilə minlərlə mütəxəssisin haqqı olan pensiyasını ən azı 5 dəfə kəsib, əvəzində verilən o dilənçi payı necə "hədiyyə" ola bilər?

Artıq 4 ilə yaxındır ki, bununla bağlı 70-dən artıq rəsmi müraciət etdiyim 30 deputatın biri belə, bu barədə Milli Məclisdəki müzakirələrdə danışmamışdır.

Çox çətinliklə qəbulunda olduğum Əmək və Əhalinin Sosial "Müdafiəsi" Nazirliyinin böyük olmayan rəsmiləri və əlaqə saxladığım bəzi deputat köməkçiləri söhbət zamanı haradasa mənimlə razılaşır, lakin əhalinin ən həssas təbəqəsi - pensiyaçılara qarşı bu haqsızlığın aradan qaldırılmasının, guya səlahiyyətləri xaricində olduğu və ya "2006-cı ilədək dürüst məlumatların olmaması" bəhanəsi ilə lazımsız, yayındırıcı "cavab"larla başlarından edirlər.

Yalnız Milli Məclis aparatından aldığım - "bu məsələyə Milli Məclisin müvafiq Komitəsində baxıla bilər" cavablarına rəğmən, artıq 4 ildir ki, hələ də "baxılır".

Bütün müraciətlərim saygısızlıqla, qoyduğum suallara cavab verilmədən, təkliflərimə münasibət bildirilmədən, "cavab verildi" xatirinə qərəzli, məntiqsiz, standart yazılarla yola verilir. Böyük səlahiyyət sahiblərinin qəbuluna düşmək isə, bilirsiniz ki, müşkül bir məsələdir.

Cənab Prezidentə etdiyim müraciətlər barədə, görünür, məlumat çatdırılmır.

Mən hesab edirəm ki, müraciətlərdə verdiyim təkliflərə saygılı yanaşmaqla, hər il pensiyaların artımı zamanı öz dövlətinə müxtəlif strukturlarda, oxşar vəzifələrdə xidmət etmiş mütəxəssislərin pensiyalarında 5-10 dəfə və daha artıq, heç bir ölkədə olmayan fərqi azaltmaq olardı və "Əmək pensiyaları haqqında" Qanuna bəzi dəyişikliklər etməklə, bu haqsızlıqlar aradan qaldırıla bilərdi.

Mən öz dövlətimə sədaqətimi 48 il fəaliyyətimlə sübut etmişəm və yenə o dövlətə sadiqəm. Lakin dövlətin verdiyi səlahiyyətlərdən yararlanan bir qrup məmur tərəfindən, mənim dövlətə etdiyim 27 illik xidmətimi sıfırlayıb, dövlətə olan inamımın, etibarımın məqsədli olaraq sarsıdılması ilə barışa bilmərəm və bu allahsızlığın aradan qaldırılması üçün ömrümün sonuna kimi çalışacağam!




Odur ki, səlahiyyətli qurumlardan xahiş edirəm, 5 dəqiqə özünüzü mənim yerimə qoyaraq, hər ay mənim pensiya alanda sözlə ifadə edə bilmədiyim hansı ağrı-acıları yaşadığımı təsəvvür edəsiniz və mənə empatiya ilə yanaşmaqla, bu sahədə ədalətin bərpası üçün hər hansı bacardığınız köməkliyinizi əsirgəməyəsiniz".

***Jalə FAMİLQIZI***

**Redaksiyadan: Mövzunu diqqətdə saxlayacağıq. Aidiyyəti qurumların mövqeyini dərc etməyə hazırıq.**

# Şəhid analarından həmdərdlərinə çağırış

## "Balalarınızın ruhunu incitməyin; çayxanalara, kababxanalara şəhid övladlarınızın şəkilləri ilə getməyin, ora ziyarətgah deyil"

***44 günlük Qarabağ müharibəsindən 5 ilə yaxın vaxt keçsə də, bu savaşda yaşananlar dünən-srağagün baş vermiş hadisələr kimi xatirələrdədir. İstər hərbçilərimizin qəhrəmanlığı, istər də xalqımızın Ali baş komandanın ətrafında bir nəfər kimi birləşməsi qürurverici anlar, tariximizin bir parçası olaraq heç zaman yaddaşlardan silinməyəcəkdir. Şübhəsiz, Azərbaycan var olduqca bu şərəfli tarixi bizə yaşadanlar - şəhidlərimiz, qazilərimiz də gələcək nəsillər tərəfindən sayğı ilə anılacaqdır.***

Əlbəttə, heç bir savaş itkisiz, ağrı-acısız bitmədiyi kimi, Azərbaycan xalqının Vətən Müharibəsi də sevinc və qürur hissi ilə yanaşı, özü ilə kədər, qəmqüssə də gətirdi. Xalqımız bu savaşda 3 min nəfərdən çox qəhrəman hərbçisini itirdi. Hansı ki, müqəddəslik zirvəsinə ucalan o şəhidlərin hər biri dövlətimiz tərəfindən daima yad edilir, onların qəhrəmanlıqları haqda tarixi salnamələr yazılır, filmlər çəkilir, dastanlar qoşulur, eləcə də ailə üzləri, yaxınları daim diqqət mərkəzində saxlanılır. Bir sözlə, dövlətimiz ilk gündən etibarən şəhid ailərinin yanında olduğunu nümayiş etdirir və heç bir şəhid valideyni, övladı, xanımı və s. diqqətdən, qayğıdan kənarda deyil. O cümlədən, bəzən bu istiqamətdə ayrı-ayrı vətəndaşlarımız tərəfindən də müxtəlif təşəbbüslər irəli sürülür, insanlar şəhid yaxınlarını tək qoymamağa, onların ağrı-acısına məlhəm olmağa çalışırlar.

Amma, çox təəssüflə qeyd olunmalıdır ki, bəzən bu məsələdən sui-istifadə edənlər, "şəhid ailələrinə qayğı" adı altında şəxsi maraqlarını güdənlər, öz ciblərini doldurmağa çalışanlar da olur. Məsələn, zaman-zaman hansısa sosial şəbəkədə "şəhid ailərlərinə dəstək" adı altında yardım kampaniyası təşkil edildiyinin şahidi oluruq. Üzücü haldır ki, bu cür işbazlar onların səmimiyyətinə inanan bəzi şəhid yaxınlarını da öz çirkin əməllərinə alət edirlər. Tutaq ki, onların iştirakı ilə hansısa tədbir keçirmək adı altında əvvəlcədən müxtəlif insanların - xeyirxah iş adamlarının, bu mövzuya həssas yanaşan vətəndaşlarımızın və s. qapısını döyərək, pul, yardım toplayırlar. Halbuki, şəhid adı altında yardım toplanılmasının özü ən böyük yanlışdır. Ən azı ona görə ki, yuxarıda da qeyd etdiyimiz kimi, bu gün şəhid ailələri dövlətin himayəsindədir və onlar yardıma möhtac buraxılmayıb. Digər tərəfdən, 5 il keçməsinə baxmayaraq, hələ də oğlunun vəfatı ilə barışmayan şəhid valideynlərini, xüsusilə də şəhid analarını bu cür "pulyığma kampaniyaları"na alət etmək şəhid ruhuna hörmətsizlikdir. Kimsənin də şəhid ruhunu incitmək haqqı yoxdur və ola da bilməz.

Yeri gəlmişkən, dünən "TikTok" platformasında qarşımıza çıxan bir paylaşım da dediklərimizin bariz nümunəsi hesab oluna bilər. Söhbət yenə də ortada yardım toplanılması faktından gedir. Elə adı da "Yardım yolu" olan səhifədə bir qrup şəhid anasının Qarabağa - övladlarının qanı tökülən ərazilərə səfərinin təşkil olunduğu haqda məlumat verilir. Əlbəttə, niyyət saf olsa, bu cür təşəbbüsləri alqışlamaq olar. Amma, yuxarıda da qeyd etdiyimiz kimi, heç bir halda şəhid anaları kimlərinsə şəxsi maraqlarına qurban verilməməlidir. Onların səmimiyyətindən istifadə edib, hansısa yanlışa sürükləməklə övladlarının ruhu incidilməməlidir.

Diqqət edək, daha çox hansısa çayxananın, yaxud kababxananın reklamı üzərində qurulan çəkiliş zamanı şəhid anaları əllərində oğullarının rəsmlərini tutaraq, qrup halında yeməyə dəvət olunurlar. İlk baxışdan rastlaşdığım bu mənzərə heç də ürəkaçıcı olmadığı üçün videonun rəy bölümünə diqqət etdim. Görünən o idi ki, təkcə mən bu fikirdə deyildim, əksəriyyət havayı yemək üçün şəhid analarının övladlarının fotoları ilə kababxanaya daxil olmasının əleyhinə status yazmışdı. Hətta bu mənzərəyə etiraz edənlər arasında şəhid anaları da var idi. Məsələn, onlardan biri, "Kimlərəsə kart atıb, qazilərin, şəhid analarının, şəhid övladlarının adından pul yığmağa ehtiyac yoxdur. Cənab Prezidentimiz, Mehriban xanım, Heydər Əliyev Fondu bizə yetərincə qayğı göstərir. Bir sosiska, bir yumurtaya görə anaları alçaltmayın", - deyə yazırdı.



Həmçinin, "Balamızın şəkillərindən istifadə edib, çayxanada pulsuz çay içmək düzgün deyil", - yazan da vardı. Maraqlısı o idi ki, səhər yenidən həmin səhifəyə diqqət edəndə bu tədbirin əleyhinə yazılan statusların bir çoxunun silindiyinin şahidi olduq(Bəzi statusları təqdim edirik - FOTO). Səhifəni idarə edən şəxs isə, nə qədər təəccüblü olsa da, tənqidlərə "qeyrətiniz var, gəlin siz də yardım edin", - deyə reaksiya vermişdi.

Bir daha qeyd edək ki, həmin tədbirdə iştirak edən şəhid analarının heç birini qınamaq olmaz. Onlar övladlarının qanı tökülən ərazilərə səfər etmək üçün bu yola çıxıblar. Çox güman ki, o şəkilləri də məhz mənzil başında qaldırmaq, xatirə fotosu çəkdirmək üçün özləri ilə götürüblər, kimsə onu kababxanada havayı yemək məqsədilə aparmayıb. Amma çox təəssüf ki, təşkilatçıların yanlışı, yaxud qeyri-peşəkarlığı səbəbindən bu cür xoşagəlməz mənzərə yaranıb.

Əlbəttə, etiraz statuslarında deyildiyi kimi, şəhid analarının övladlarının şəkillərini hansısa ziyarətgaha, tutaq ki, Kəbəyə, Məkkəyə gedən zaman əllərində açıq halda saxlaması normal qarşılanardı. Lakin bu cür fotolarla çayxanaya, kababxanaya getmək heç də xoşagələn mənzərə deyil və qınaqlar da tamamilə haqlıdır.

Üstəlik, sonradan həmin fotoları, eləcə də dövlət bayrağımızı qatlayıb stulun başına qoymaq və arxanı ona söykəyib yeməyə başlamaq da ikinci bir yanlışdır. Görünür, məhz bunları nəzərə alan bəzi şəhid anaları bu tədbirə qatılan həmdərdlərinə - şəhid analarına "övladlarınızın ruhunu incitməyin", - deyə çağırış ediblər. Şübhəsiz, bu çağırışçılara da haqq qazandırmamaq mümkün deyil.



Sonda isə bir daha qeyd edək ki, zənnimizcə, belə xoşagəlməz hadisələrin yaşanmaması, ən əsası isə şəhidlərimizin ruhlarını incitməmək üçün bu cür tədbirlər dövlət nəzarəti altında keçirilməlidir. İkincisi isə, şəhid adı ilə təşkil olunan tədbirlər sosial şəbəkələrdə təşkil olunan yardım kampaniyaları ilə baş tutmamalıdır. Məsələn, biz indiyədək, xüsusilə də Heydər Əliyev Fondunun dəstəyi ilə onlarla bu cür tədbir keçirildiyinin şahidi olmuşuq. Hansı ki, istər şəhid valideynləri, istər şəhid xanımları və övladlarının iştirakı ilə baş tutan bu tədbirlərin çox yüksək səviyyədə təşkil olunduğu haqda mətbuatda çoxsaylı faktlar mövcuddur. Bu tədbirlərin hər biri böyük ruh yüksəkliyi ilə başlayıb, o cür də başa çatıb. Doğrudur, əksər hallarda bu tədbirlər haqda mediaya məlumat verilməsinə, sosial şəbəkələrdə reklam xarakterli paylaşımlar edilməsinə ehtiyac da duyulmayıb. Çünki məqsəd şəhid valideynlərinin, şəhid xanımlarının və övladlarının könlünü xoş tutmaqdır. Bu işdə isə nə dövlətin reklama ehtiyacı var, nə də bu cür tədbirlərin təşkilatçılarının. Odur ki, bundan sonra da şəhid adı altında keçirilən hər bir tədbir zamanı daha diqqətli olmalıyıq. Çünki, vətəndaş və xalq olaraq başlıca məqsədimiz şəhid ruhlarını uca tutmaqdır, onlar incitmək deyil.

***Hazırladı:***
***Jalə FAMİLQIZI***

**P.S. Mövzunu davam etdirəcəyik.**


leyla_xanim_muradova 16 мин.
Bir şəhid anası olaraq çox utandım. Bir bu qalmışdı kafelərə, kababxanaıara, çayxanalara balalarımızın şəkili ilə girək ki, bizdən pul almasınlar. Bu hərəkətləri görədən sonra Şəhid anası adını özümə yaraşdırmadım. Mənə marağlıdır bu analar o çayxanaya oğullarının şəkilləri ilə.girdilər və sonra oldu? Stolun üstünə sosiska, yumurta, şor, çörək gəldi. Bunlarda şəkilləri qatdələyib qoydular sumkalarına və başladılar yeməyə. Sonra durdular oturdular avtobusa və yola davam etdilər. Görəsən onların qarınları doyandan sonra heç aZacıq olsada xəcalət çəkdilərmi? Allaha and olsun ki, mən o anaların yerinə xəcalətdən də betərini çəkdim. Elə bildim ki, o şəhid şəkillərinin içində mənim də balamın şəkili var, və o anaIrın içində mən də varam. Axı Şəhid anası adı bizm üçün çox müqəddəs addır. Kaş ki onu bəzi içimizdə olan analar bu adı qürurla daşıya bilə.


Ayıbdı Şəhid şəkilləriylə çay evinə yeməkxanalara girmək olmaz. Məndə şəhid anasıyam, analarda sözümdən inciməsin belə çıxır ki balaları Şəhid olana kimi onlar yemək yeyib çay içməyiblər. Əziz analar siz hansısa bir restaranın reklamına gedib qarın doyuzduranda balalarınız sizin yerinizə xəcalət çəkir. Şəhid şəkilləri birdə Bayrağımız müqəddəs and yerimizdi, milli dəyərlərimizdi. Onları başınız üstündə saxlayın əlinizdə oynatmayın. O Bayraq enməsin deyə oğullarımız şirin canından keçdilər
ə 😭😭
1 ч. Ответить 2

Natavan
Ana inanırsız ki, bu şəhid analarının adını batırmaq üçün bu videoları çəkib paylaşırlar. Mir millət olaraq mən də xəcalət çəkdum, bir qarln yeməyə görə, Azərbaycana Zəfəri yaşadan Qəhrəman oğullarımızın şəkillərini əllərində şüar kimi tutaraq, yeməkxanaya gedirlər. Bu nə deməkdir? Bunu düşmənlərimiz görsə bizə gülərlər. Axı Dövlətimiz necə lazımdırsa, şəhid ailələrunə dəyər verir. Çox heyiflər olsun. 😔

# Şamaxıda film kimi dələduzluq

## Quşçu kənd sakini kombayn almaq istədi, 10 min manatından oldu



***Şamaxı rayonu, Quşçu kənd sakini Həmidov Heydər Abgül oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Daxili İşlər naziri Vilayət Eyvazova müraciət edir:***

"Cənab Nazir!

Mən, Həmidov Heydər Abgül oğlu, övladım Həmidov Məhərrəm Heydər oğlu ilə kombayn almaq qərarına gəldik. Bununla bağlı bir-iki araşdırma apardıq və bizə Bərdə şəhərində yerləşən "Aqrotexnika-1961" MMC-nin direktoru Əliyev Cahid Səlim oğlunun əlaqə nömrələrini verərək, onunla əlaqə saxlaya biləcəyimizi bildirdilər. Əlaqə saxladıq, o, məhsullarını göstərmək üçün bizi Əli Bayramlıya (Şirvan) kombayn və traktorlar satılan yerə apardı. Traktor və kombaynların ona məxsus olduğunu və hansını istəsək yoxlayıb ala biləcəyimizi bildirdi. Biz də NOVA -340 markalı texnikanı sürüb yoxlayıb bəyəndik.

Əliyev Cahid Səlim oğlu bizi Kürdəmir rayon ASAN Xidmət mərkəzinə dəvət etdi və aramızda 17 aprel 2023- cü il tarixində 11 saylı müqavilə imzalandı. Müqaviləyə görə, ümumi dəyəri 90 000 (doxsan min ) manat olan kənd təsərrüfatı texnikası - taxıl yığan kombayn "NOVA" - 340 markalı texnika üçün ilkin 10 000 (on min) manat ödəniş mənim tərəfimdən icra olunmaqla, texnika on gün müddətində mənə verilməliydi. Mən 10 000 manatı Əliyev Cahid Səlim oğlunun kart hesabına ödədim. Vaxt bitdikdən sonra həmin şəxslə əlaqə saxlayanda o bildirdi ki, həmin kombayn Şirvan şəhərindədir, gəlib əmlaka qabaqcadan baxmalısınız. Sonradan bizə məlum oldu ki, onlar dələduz dəstə imiş. Saxta VÖEN açaraq özlərini şirkət kimi təqdim etmiş, bizi aldadaraq Şirvan şəhərində kombayn satılan yerə aparmış və bizə bir-iki kombayn göstərmişdir.

Polisə müraciət etdik. Hazırda işimizə Ağcabədi rayonunda baxılır. 9 aydır dələduz şəxs hələ də həbs olunmayıb.

Cənab Nazir!

Sizdən xahiş edirik, işimizin tez yekunlaşması və bizə dəyən zərərin ödənilməsi üçün göstəriş verəsiniz".

***Jalə FAMİLQIZI***

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# Müalicə olunmaq üçün Moskvaya getdi, qanunsuz olaraq işdən çıxardılar

## Ucar sakini "Azərişıq" ASC-nin yerli rəhbəliyindən şikayətçidir




***Ucar rayon sakini Nəbiyev Əliqulu Tapdıq oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, onu "Azərişıq" ASC-dən qanunsuz olaraq işdən çıxarıblar:***

"Mən, Nəbiyev Əliqulu Tapdıq oğlu, yazaraq xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Qeyd edim ki, 2018-ci ildən Ucar rayonunda "Azərişıq" ASC-də nəzarətçi mühəndis vəzifəsində çalışmışam. Gördüyüm işlər hər zaman yüksək səviyyədə olub.

2023-cü il noyabr ayında səhhətimlə bağlı məzuniyyət götürüb, Moskva şəhərinə getdim. Bir müddət orada müalicə olundum. Müalicə müddətində 6 aylıq bülleten götürmüşəm. Qalan vaxtları isə öz hesabıma götürmüşəm.

Müalicələrimi etdirdim və 2025-ci ilin yanvar ayında Moskva şəhərindən qayıtdım. Yanvar ayının 23-də 70-ci maddə ilə əmr veriblər. Həmin gündən indiyə kimi bülleten pulumu ala bilmirəm. Müxtəlif bəhanələr uydururlar. Şirkət Moskva şəhərində müalicə aldığım xəstəxanaya sorğu verib, xəstə olduğumu ordan da dəqiqləşdiriblər. Lakin yenə də bülleten pulumu vermirlər, nə də işimə qaytarmırlar.

Sonradan bilmişəm ki, keçmiş rəis Zaur Şirəliyev öz xalası oğlunu mənim yerimə işə qoyub. Bu vasitə ilə məni qanunsuz olaraq işdən qovublar".

***Jalə FAMİLQIZI***

**Redaksiyadan: Yazıda adı çəkilən qurumun mövqeyini dərc etməyə hazırıq**

# Bələdiyyə sədri saxtakarlıqda ittiham olunur

## Qarabağ qazisinin ailəsinə məxsus torpaq sahəsini saxta sənədlərlə öz adına keçirib...

***Yevlax rayonu, Ş.Qurbanov küçəsi, ev 88 ünvanında yaşayan Qarabağ müharibəsi qazisi Səfərov Azər Saleh oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi saytımız vasitəsilə Prezident İlham Əliyevə, Məhkəmə Hüquq Şurasının sədri İnam Kərimova, Şəki Apellyasiya Məhkəməsinin sədri Nuru Quliyevə müraciət edir:***

"Cənab Prezident!

Hörmətli Cənabalar!

Nəzərinizə çatdırmaq istəyirəm ki, 1998-ci ildə Yevlax rayonu, Qoyunbinəsi kəndi ərazisində Dövlət Aqrar İslahat Komissiyasının qərarı ilə bizim adımıza 0.06 ha torpaq sahəsi ayrılmışdır. Keçmiş bələdiyyə sədri Məmmədov Qabil Sultan oğlu qanunsuz olaraq həmin torpaq sahəsindən istifadə etmiş, həmçinin saxta alqı-satqı müqaviləsi əsasında torpağı 2109011780 və 2019014755 qeydiyyat nömrəsi ilə Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətində xəbərimiz olmadan bizim adımızdan öz adına qeydiyyata aldırmışdır.

Bununla bağlı Yevlax rayon Polis şöbəsində və prokurorluq orqanında araşdırma aparılaraq, saxta yollarla alqı-satqı və digər sənədlərin ekspertizadan gələn cavablarından sonra bati Məhkəməsinə bizə məxsus torpaq sahəsinin Dövlət Aktını əsassız olaraq ləğvini qoydu. Şəki İnzibati Məhkəməsinin hakimi Fəxri Hacızadə tərəfindən düzgün araşdırma aparılmadan, haqsız və ədalətsiz olaraq bizim əleyhimizə qərar çıxarılaraq, 30 il bundan əvvəl bizə verilən Dövlət Aktı ləğv edildi. Səbəb kimi isə, guya, Əmək Komitəsində torpaqla bağlı verilən qərarın tapılmamasını əsas gətirmişdir.

Sonradan mən Əmlak Komitəsinin sədrinin qəbulunda oldum, vəziyyəti izah etdim. Mətin





АЗӘРБАЈЧАН РЕСПУБЛИКАСЫ

ТОРПАҒА МҮЛКИЈЈӘТ ҺҮГУГУНА ДАИР

ДӘВЛӘТ АКТЫ

JN° 690

KOD 90100028

ARXİVDƏ SAXLANILAN NÜSXƏ İLƏ EYNİDİR

Qabil Məmmədovun barəsində CM-nin 320.2-ci maddəsi ilə cinayət işi başlamış və sonradan müddətin keçməsi əsası ilə xitam verilmişdir.

Mən etiraz olaraq Yevlax Rayon Məhkəməsinə müraciət etdim. Qarşı tərəf isə Şəki İnzi-


satılmasına dair 17 yanvar 2006-cı il tarixli, 4 Ə-1-18 reyestr nömrəli alqı-satqı müqavilə saxtalaşdırılması faktı istintaqla öz təsdiqini tapdığından həmin müqavilədə göstərilmiş 6,06 ha tor sahəsinin mülkiyyətçisinin müəyyən edilməsi məqsədilə həmin şəxslərin mülki qaydada iddia taləb məhkəməyə müraciət etmək hüquqlarının olması izah edilməlidir.

Yuxarıda göstərilənlərə əsasən və Azərbaycan Respublikası CPM-nin 85, 145, 39.1.2, 39.15 və 280-282-ci maddələrini rəhbər tutaraq,

QƏRARA ALDIM:

1. 200406027 saylı cinayət işi üzrə Məmmədov Tofiq Süleyman oğlunun əməlində Azərbaycan Respublikası CM-nin 320.1-ci maddəsinin tərkibi olmasına baxmayaraq onun törətdiyi cinayət əməli üzrə cəlbetmə müddəti keçdiyindən və öldüyünə görə cinayət işi üzrə icraata Azərbaycan Respublikası CPM-in 39.1.3 və 39.1.5-ci maddələrinə əsasən xitam verilsin.

2. Məmmədov Qabil Süleyman oğlunun əməlində Azərbaycan Respublikası CM-nin 320.2 maddəsinin tərkibi olmasına baxmayaraq onun törətdiyi cinayət əməli üzrə cəlbetmə müddəti keçdiyindən Qabil Məmmədovun barəsində cinayət təqibinə Azərbaycan Respublikası CPM-in 39.1-cü maddəsinə əsasən xitam verilsin.

3. Məmmədov Qabil Süleyman oğlunun əməlində Azərbaycan Respublikası CM-nin 320.1 yeni hüquq verən və ya vəzifədən azad edən rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma maddəsinin tərkib əlamətləri olmadığından barəsində cinayət təqibinə Azərbaycan Respublikası CPM-in 39.1.2-ci maddəsinə əsasən xitam verilsin.

4. Məmmədov Qabil Süleyman oğlunun əməlində Azərbaycan Respublikası CM-in 188.3-maddəsinin tərkib əlamətləri olmadığından barəsində cinayət işinin başlanması Azərbaycan Respublikası CPM-in 39.1.2-ci maddəsinə əsasən rədd edilsin.

5. Yevlax rayonunun Qoyunbinəsi kəndində yerləşən 6,06 ha torpaq sahəsinin Səfərov Saleh Allahverdi oğlu, Səfərova Xatirə Musa qızı, Səfərova Samirə Saleh qızı, Səfərov Azər Saleh oğlu Səfərov Ceyhun Saleh oğlu adından Məmmədov Qabil Süleyman oğluna satılmasına dair 17 yanvar 2006-cı il tarixli, 4 Ə-1-18 reyestr nömrəli alqı-satqı müqaviləsinin saxtalaşdırılması faktı istintaqla təsdiqini tapdığından həmin müqavilədə göstərilmiş 6,06 ha torpaq sahəsinin mülkiyyətçisinin müəyyən edilməsi məqsədilə həmin şəxslərin mülki qaydada iddia tələbi ilə məhkəməyə müraciət etmək hüquqlarının olması izah edilsin.

6. Qərar barədə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən Yevlax rayon prokuroruna və maraqlı tərəflərə məlumat verilsin.

7. Cinayət işi rayon polis şöbəsinin arxivində saxlanılsın.

Yevlax RPŞ-nin İB-nin müstəntiqi polis kapitanı — Elçin Sevindikov

müəllimin göstərişindən sonra gizlədilmiş qərarı və digər müvafiq arxiv sənədlərini mənə təqdim etdilər. Bundan sonra yeni açılmış hal kimi mən Şəki İnzibati Məhkəməsinə müraciət etdim. İşimiz yenidən Fəxri Hacızadənin icraatına verildi. Mən də bu hakimin işə ədalətli baxacağına inanmırdım. Təəssüf ki, düşündüyüm kimi də oldu...


...ндиндә, Ашағы Гархун коллектив
...998-чи ил тарихдә Тәрәвәз
...илмишдир.
...лектив тәсәррүфатларынын вә
...слаһат комиссијалары торпаг
...комплекс јерғурулушу лајиһә
...убјектләрин сијаһысынын тәсди-
...әсдиги Рајон Аграр Ислаһаты

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" PHŞ tabeliyində "Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi" MMC ARXİVDƏ SAXLANILAN SƏNƏDİN NÜSXƏSİ İLƏ EYNİDİR

Hazırda işimiz Şəki Apeliyasiya Məhkəməsinin hakimi Vüqar Musayevin icraatındadır. Bu illər ərzində mənim və ailə üzvlərimin bütün Konstitusion hüquqları pozulmuşdur. Cənab Prezident bu ili "Konstitusiya ili" elan etdiyi üçün, biz də pozulmuş konstitusion hüquqlarımızın bərpa olmasını rica edirik.

Cənab Prezident!

Hörmətli Cənabalar!

Yuxarıda qeyd etdiklərimi nəzərə alıb, Qarabağ qazisi olaraq xahiş edirəm ki, Şəki Apellyasiya Məhkəməsində bizim bu işimizə ədalətli baxılmasına və dövlət tərəfindən bizə ayrılmış torpaq sahəsinin qaytarılmasına köməklik göstərəsiniz".

***Jalə FAMİLQIZI***

**Redaksiyadan: Yazıda adları çəkilən şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# İran-İsrail müharibəsinin qlobal proseslərə və Azərbaycana təsirləri

***2025-ci il 13 iyun tarixində səhər saatlarında İsrailin İranın bir neçə bölgəsindəki hədəflərə qarşı genişmiqyaslı hücumu ilə başlayan və İranın əks-reaksiya verməsi ilə davam edən müharibə dünyada böyük rezanas doğurdu.***

İsrail Müdafiə Qüvvələri və Mossad tərəfindən həyata keçirilən hərbi əməliyyatlar İranın nüvə obyektlərinə qarşı istiqamətlənmişdir. 8 il davam edən İran-İraq müharibəsindən sonra İrana edilən ən böyük hücum idi. Yüksəkrütbəli komandirlərin məskunlaşdığı məhəllələr və hərbi bazalar da daxil olmaqla, Tehranda partlayışlar baş verdi. Partlayışlar ölkənin ən mühüm nüvə obyektlərinin yerləşdiyi ərazilərdə İsfahan vilayətinin Natanz şəhərində, Xondab və Xürrəmabad da qeydə alınıb. Hücumlar zamanı İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Məhəmməd Baqiri, nüvə alimləri Fereydun Abbasi və Məhəmməd Mehdi Tehrançi də öldürülüb. İsrailin İrana qarşı hərbi əməliyyatlarının əsas səbəblərindən biri də İranda bərqərar olunan hazırki, hakimiyyətin devrilməsidir.

Digər səbəblərdən biri də İranın uranın zənginləşdirilməsinin qarşısının alınmasıdır. Çünki İran hazırda uranı 60% saflığa qədər zənginləşdirir, bu da silah səviyyəsinə yaxındır və daha təkmil sentifuqalar quraşdıraraq nüvə inkişafını sürətləndirir.

Hücumdan bir gün əvvəl Beynəlxalq Atom Enerjisi Agentliyi (MAQATE) 20 ildə ilk dəfə İranın nüvə öhdəliklərinə əməl etmədiyini müəyyən etdi. Hətta siyasi təhlilçilərdə xəbərdarlıq edirlər ki, bu fəaliyyətlər hər hansı bir məqbul mülki, məqsəddən qat-qat artıqdır.

Hərbi əməliyyatlarının gedişatında iyun ayının 13-də İran da İsrailə qarşı sərt cavab verəcəyini bildirdi. Qeyd edildi ki, İranda İsrail və ABŞ-ın Yaxın Şərqdə yerləşən hərbi bazalarına hücum edəcəklər. ABŞ-da eyni zamanda İraqdakı bəzi əsgərlərini evakuasiya etdi və həmçinin ABŞ öz əsgərlərinin ailə üzvlərinin regionda təxliyəsinə başladı. İsrail Müdafiə Qüvvələrinin briqada generalı Efi Defrinin sözlərinə görə, İran ilkin cavab olaraq səhər saatlarında İsrailə doğru 100-dən çox pilotsuz uçuş aparatı ilə hücum edib. Puanın bəziləri hava məkanında İordaniya Hərbi Hava Qüvvələri tərəfindən, bəziləri isə Səudiyyə Ərəbistanı və Suriya üzərində İsrail Hərbi Hava Qüvvələri tərəfindən vurulub. İranın dövlət xəbər agentliyi İRNA yüzlərlə raketin atıldığını bildirsə də, İsrail Müdafiə Qüvvələri hücum zamanı 100-dən az ballistik raketin buraxıldığını qeyd ediblər.

Bəs İsrail və İran necə düşmən oldu?

1979-cu ilədək yəni İslam İnqilabına qədər İran və İsrail bir-biriylə sülh içində yaşayırdı. Hətta 1948-ci ildə yeni yaranan İsrail dövlətini tanıyan ikinci islam dövləti məhz İran olmuşdur. İsraili tanıyan ilk müsəlman dövləti isə Misir idi. O dövrdə Yaxın Şərqdə və ABŞ-ın ən böyük müttəfiqlərindən biri sayılan İranı monarxiya idarə üsulu ilə idarə edən



Pəhləvilər sülaləsi hakimiyyətdə idi. Bu səbəbdən İsrail dövlətini quran ilk hökumət rəhbəri David Ben-Qurion ərəb qonşularının yeni yəhudi dövlətini təcrid etməməsi üçün İranla dostluğa can atırdı.

1979-cu ildə Ayətullah Ruhullah Xomeyninin rəhbərliyi ilə baş verən İslam İnqilabı nəticəsində şah taxtdan endirildi. İranda qurulan yeni hakimiyyət ABŞ onun müttəfiqi İsrailin "imperializmini" rədd edən, təzyiq altında olan torpaqları müdafiə etməyə əsaslanan bir dövlət qurmağa çalışdı. Ayətullah Xomeyninin rəhbərliyi altında olan ölkə İsraillə olan bütün əlaqələrini kəsdi və İsrail vətəndaşlarının pasportlarını tanımaqdan imtina etdi. Tehrandakı İsrail səfirliyi ələ keçirildi və binası İsrail hökümətinə qarşı mübarizə aparan və Fələstin dövləti qurmaq istəyən Fələstin Azadlıq Təşkilatına verildi. Bu səbəbdən İran Fələstin dövlətinə böyük rəğbət bəsləyir. İsrailə qarşı düşmənçilik münasibətləri də buradan qaynaqlanır. Yəni İran dövləti "müsəlman ərəb ölkələrinin diqqət yetirmədiyi Fələstin məsələsinə dəstək verən pan-islamçı bir güc kimi" göstərməyə, artıq Xomeyni Fələstin məsələsinə öz şəxsi məsələsi kimi yanaşmağa başladı.

Digər tərəfdən də, İsrailin İrana qarşı düşmənçilik siyasəti 1990-cı illərə qədər ortaya çıxmadı. Buna da səbəb Yaxın Şərqdə Səddam Hüseyn rejiminin daha güclü olması idi. Hətta 1980-1988-ci illərdə baş verən İran-İraq müharibəsində ABŞ-ın İraqa qarşı istifadə etdiyi silahlar gizli şəkildə məhz İrana yönəldimişdir. Bu da onu bir daha sübut edir ki, ABŞ və İran arasında gedən mübarizənin səbəblərindən biri də Yaxın Şərqdə İsrailin nüfuzunu daha da gücləndirməkdir.

İran-İsrail müharibəsinin regiona və Azərbaycana təsirləri necə olardı?

12 gün davam edən İran-İsrail müharibəsi regionda nüvə təhdidini artırırdı. Digər tərəfdən də İranla qonşu olan ölkələrə o cümlədən Azərbcana "qaçqın dalğası" qaçılmaz idi. Regionda həm hərbi, həm siyasi, həm də iqtisadi problemlərə gətirib çıxarırdı. İran-İsrail müharibəsi Yaxın Şərqdə və Cənubi Qafqazda o cümlədən Azərbaycanda təhlükəsizlik sahələrində də ciddi təsirlərə səbəb ola bilərdi.

**1. Təhlükəsizlik və geosiyasi risklər**

Cənubi Qafqazda gərginlik arta bilər:

İranla qonşu olan və İsraillə strateji əməkdaşlıq edən Azərbaycan bu münaqişədə dolayı yollarla təzyiqlərlə üzləşə bilər.

İran tərəfindən sərhəd yaxınlığında hərbi fəaliyyətlər artarsa, Azərbaycanın cənub bölgələrində (əsasən, Astara, Lənkəran, Biləsuvar) narahatlıq və qeyri-sabitlik yarana bilər.

**Kiberhücumlar və təxribat riski:**

İsrail-Azərbaycan əlaqələrinə görə İran tərəfi kibertəxribat və dezinformasiya əməliyyatları təşkil edə bilər.

**2. İqtisadi təsirlər**

Enerji bazarında qiymət dalğalanmları: Müharibə neft və qaz qiymətlərində sıçrayışlara səbəb ola bilər. Bu, Azərbaycanın enerji gəlirlərini qısa müddətdə artıra bilər, amma qlobal bazarda qeyri-sabitlik uzunmüddətli strateji planlamanı çətinləşdirər.

İranla ticarətə təsir: İranla sərhəd ticarəti zəifləyə və Astara gömrüyündə yük axınında azalma ola bilər.

Regional layihələrə təhlükə: Zəngəzur dəhlizi, Cənubi Qaz Dəhlizi kimi strateji kommunikasiya layihələri təsirlənə bilər.

**3. Diplomatik balans və beynəlxalq mövqe**

Azərbaycan münaqişədə neytral mövqe saxlamağa çalışsa da, İsraillə əməkdaşlığı və İranla həssas münasibətləri səbəbilə diplomatik təzyiqlərə məruz qala bilər.

Türkiyə və ABŞ-ın Azərbaycana dəstəyi önə çıxar, bu da İranla gərginliyi daha da artıra bilər.

Azərbaycanın Şiə əhalisinin duyğularının manipulyasiya riski arta bilər (İran tərəfindən məzhəb əsaslı təbliğat ehtimalı).

**4. Sosial və informasiya mühiti**

Müharibə zamanı dezinformasiyanın artması, sosial şəbəkələrdə təşviş, panika və İran yönlü təbliğatın yayılması ehtimalı var.

Cəmiyyətin bölünməsi və radikallaşma riskləri: İran-Azərbaycan arasında dini və ideoloji zəminli gərginliklər baş qaldıra bilər.

**Nəticə**

İran-İsrail müharibəsi Azərbaycan üçün birbaşa deyil, dolayı və çoxşaxəli təsirlərə malik ola biləcək bir təhlükədir. Azərbaycan öz geosiyasi mövqeyi, İranla sərhəd qonşuluğu, İsraillə strateji münasibətləri səbəbilə bu gərginliyin tam ortasında qalır.

*Pərvanə ABBASOVA*

# İnsan Alverinə qarşı Beynəlxalq Mübarizə...

***İnsan hüquq və azadlıqlarının kobud şəkildə pozulması ilə nəticələnən insan ləyaqəti ilə bir araya sığmayan, insanların həyat və sağlamlıqları üçün ciddi təhlükə yaradan qlobal problemlərdən biri də insan alveridir. Bu problemin aradan qaldırılması beynəlxalq təşkilatlarla bərabər milli hökumətlərin də prioritet vəzifələri sırasındadır.***

Birləşmiş Millətlər Təşkilatının 2013-cü il 18 dekabr tarixli qətnaməsi ilə 30 iyul "İnsan Alverinə qarşı Beynəlxalq Mübarizə Günü" elan edilmişdir. Bu günün qeyd edilməsində əsas məqsəd bu qlobal problemə qarşı birgə fəaliyyət göstərməkdir. Məqsədlər sırasında, həmçinin insan alverinə qarşı mübarizəni gücləndirmək, insan alveri qurbanlarına hüquqi, psixoloji və sosial dəstək göstərmək, cəmiyyətin bu problemlə bağlı məlumatlılığını artırmaq, dövlət orqanlarını və beynəlxalq təşkilatları daha effektiv əməkdaşlığa təşviq etmək də var.

Ölkəmizdə də bu problemə qarşı ciddi mübarizənin əsası qoyulmuş, müvafiq institusional mexanizmlər yaradılmış, milli fəaliyyət planları, dövlət proqramları qəbul edilmiş, qanunvericilik bazası beynəlxalq təcrübəyə uyğun formalaşdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 6 may tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında İnsan Alverinə qarşı Mübarizə üzrə Milli fəaliyyət plan"ı təsdiq edilmiş, 28 iyun 2005-ci il tarixdə isə "İnsan alverinə qarşı mübarizə haqqında" Qanun qəbul olunmuşdur.

Bu sənədlər ölkəmizin iştirakçısı olduğu BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının və onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması" haqqında Protokolun, habelə 2002-ci il 20 sentyabr tarixində qəbul edilən "İnsan alverinin qarşısının alınması və ona qarşı mübarizə haqqında" Brüssel Bəyannaməsinin müddəaları nəzərə alınaraq qəbul edilmişdir.

Azərbaycan Respublikası insan alverinə qarşı mübarizə sahəsində qeyd olunan sənədlərlə yanaşı, "Uşaq hüquqları haqqında" BMT Konvensiyasının "Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakultativ Protokolu"na, BMT-nin "İnsan alverinə və faişəliyin üçüncü şəxslər tərəfindən istismarına qarşı mübarizə haqqında" Konvensiyasına qoşulmuşdur.

İnsan alverinə qarşı mübarizədə digər ölkələrin müsbət təcrübəsindən istifadə edilməsi insan alverinə qarşı mübarizə sahəsində fəaliyyət göstərən dövlət və qeyri-hökumət təşkilatları ilə və beynəlxalq təşkilatlarla əməkdaşlıq olduqca vacibdir.

Qeyd etmək lazımdır ki, müxtəlif vaxtlarda Azərbaycan dövləti tərəfindən insan alverinə qarşı mübarizənin bütün aspektlərini özündə birləşdirən və səmərəli surətdə əlaqələndirilə bilən milli fəaliyyət planları qəbul olunmuş və uğurla icra olunmuşdur.

Fəaliyyəti dövründə insan alverinə qarşı mübarizə Azərbaycan Ombudsmanının diqqət mərkəzində olmuşdur.

Qeyd etmək istərdim ki, əhalinin müxtəlif kateqoriyalarının hüquq və azadlıqlarının müdafiəsi işinin əlaqələndirilməsinin təmin edilməsi məqsədilə Ombudsman yanında müxtəlif istiqamətlər, o cümlədən insan alveri ilə mübarizə üzrə ixtisaslaşdırılmış müşavir fəaliyyət göstərməkdədir.

Müvəkkilin insan alverinə qarşı mübarizə sahəsində fəaliyyətini əsasən aşağıdakı istiqamətlər üzrə qruplaşdırmaq olar:

- Qanunvericiliyin təkmilləşdirilməsi;
- insan alveri qurbanlarının hüquqlarının müdafiəsi və onların cəmiyyətə inteqrasiyası prosesinə dəstək verilməsi, preventiv tədbirlərin həyata keçirilməsi məqsədilə müvafiq dövlət qurumlarına təkliflərin ünvanlanması;
- hüquqi maarifləndirmə;
- dövlət orqanları, vətəndaş cəmiyyəti və beynəlxalq təşkilatlarla əməkdaşlıq;
- İnsan alveri üzrə mübarizə sahəsində qəbul olunmuş strateji sənədlərin icrası prosesində yaxından iştirak etmə və s.






Qanunvericiliyin təkmilləşdirilməsi sahəsində həyata keçirilən tədbirlər sırasına Cinayət Məcəlləsinə insan alverinə qarşı müvafiq maddənin salınması, qadın hüquqlarına, gender bərabərliyinə və ailədə zorakılığın qarşısının alınmasına dair qanunvericilik aktlarının hazırlanması ilə bağlı təklifləri aid etmək olar.

Qeyd etmək istərdim ki, Ombudsman Milli Məclislə səmərəli əməkdaşlıq əlaqələri yaratmışdır. Parlamentdə müzakirəyə çıxarılan hər qanun layihəsi öncədən Ombudsmana göndərilir və tərəfimizdən bu qanun layihələrinə baxılır və müvafiq təkliflər verilir.

Ombudsman tərəfindən qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin olunması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi də diqqətdə saxlanılmışdır. Belə ki, müvafiq sahə üzrə normativ hüquqi aktlara, habelə "Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarına, "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2025-2029-cu illər üzrə Milli Fəaliyyət Planı"nın və "Azərbaycan Respublikasında Gender Bərabərliyi üzrə 2025-2027-ci illər üçün Milli Fəaliyyət Planı"nın layihələrinə dair verilən rəy və təkliflər nəzərə alınmışdır.

Ombudsman Aparatının Milli Preventiv Qrupunun (MPQ) üzvləri tərəfindən ötən dövr ərzində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin nəzarətində olan Müvəqqəti Saxlama Yerinə (MSY) və insan alveri qurbanları üçün nəzərdə tutulmuş sığınacağa əvvəlcədən xəbərdarlıq edilmədən başçəkmələr həyata keçirilmişdir.

Bu başçəkmələr zamanı saxlanılan şəxslərlə fərdi söhbətlər aparılmış, onların saxlanma şəraiti, rəftar və hüquqi təminat məsələləri öyrənilmiş, hüquqları barədə məlumatlandırma işləri aparılmış, həmçinin qeydə alınan müşahidələr əsasında aidiyyəti qurumlara müvafiq tövsiyələr təqdim edilmişdir.

Məsələn, insan hüquqlarının müdafiəsi, o cümlədən zorakılığa məruz qalmış qadın və uşaqlar üçün krizis mərkəzlərinin, cəzaçəkmə müəssisələrindən azad edilmiş yeniyetmələr üçün sığınacaqların, valideyn himayəsindən məhrum olan uşaqlara yardım mərkəzlərinin yaradılması kimi təkliflər bu qəbildəndirlər.

Müvəkkilin təşəbbüsü ilə insan alveri probleminin həlli istiqamətlərinin müzakirəsi məqsədilə səlahiyyətli dövlət orqanlarının və vətəndaş cəmiyyətinin nümayəndələrinin iştirakı ilə dəfələrlə dəyirmi masalar və seminarlar təşkil edilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) İnsan alverinə qarşı Mübarizə İdarəsi ilə birgə əməkdaşlıqda Ombudsman Aparatında əlaqədar dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının iştirakı ilə "İnsan alverinə qarşı mübarizə" mövzularında dəyirmi masalar təşkil olunmuşdur.

Ombudsman Aparatının təşkilatçılığı ilə insan hüquqlarının, xüsusilə də uşaq hüquqlarının müdafiəsi sahəsində ictimaiyyət nümayəndələrinin, eləcə də yeniyetmə və gənclərin geniş iştirakı ilə müxtəlif mövzularda - gender bərabərliyi, ayrı-seçkiliyin qarşısının alınması, zərərli vərdişlərə və insan alverinə qarşı mübarizə, erkən evliliyin fəsadları, sağlam həyat tərzinin təbliği, məişət zorakılığına qarşı mübarizə və digər bu kimi aktual məsələlər üzrə ailələrə, məktəblilərə və yerli icma üzvlərinə ünvanlanan silsilə maarifləndirici tədbirlər həyata keçirilmişdir.

İnsan alveri qurbanları üçün nəzərdə tutulmuş sığınacağa başçəkmə zamanı sığınacaq sakinləri qəbul olunmuş, onlarla konfidensial qaydada söhbət aparılmış, müraciətləri dinlənilmişdir. Qəbul edilmiş şəxslərə Ombudsmana müraciət formaları, 24 saat fəaliyyət göstərən 916 Çağrı Mərkəzi barədə ətraflı məlumat verilmişdir. Həmçinin insan alveri ilə bağlı daxil olmuş ərizələr üzrə Ombudsman Aparatı tərəfindən araşdırmalar aparılmış və nəticəsi barədə müvafiq cavablar verilmişdir.

Bundan başqa, sənədsiz miqrantların insan alverinə daha çox məruz qalan əhali qrupu olduğunu nəzərə alaraq, bu kimi cinayətlərin qarşısının alınması məqsədilə qanunsuz miqrantların saxlanılması mərkəzlərində saxlanılan əcnəbi və vətəndaşlığı olmayan şəxslərlə, xüsusilə qadın və uşaqlarla təbliğat işinin aparılması, onlara insan alveri qurbanlarını gözləyən təhlükə, təmin edilən müdafiə üsulları barədə məlumatların verilməsinin vacibliyi diqqətdə saxlanılmışdır.

Ombudsman Aparatı və regional mərkəzlər tərəfindən daimi olaraq qadınlar və qızlar arasında hüquq mədəniyyətinin inkişaf etdirilməsi istiqamətində hüquqi maarifləndirmə tədbirləri həyata keçirilmiş, "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyası, habelə "İnsan Hüquqları Aylığı" və "Uşaq Hüquqları Aylığı" çərçivəsində paytaxtda və regionlarda təlim və seminarlar təşkil olunmuşdur.

Hər il aylıqlar çərçivəsində Ombudsman Aparatı, mərkəzi və yerli icra hakimiyyəti orqanları, vətəndaş cəmiyyəti institutları, o cümlədən QHT və media nümayəndələri, icmalar tərəfindən uşaq hüquqlarına dair müxtəlif maarifləndirmə tədbirləri keçirilir, müsabiqələr, sərgilər təşkil olunur, araşdırmalar aparılır və hüquqların təmin olunması istiqamətində digər tədbirlər görülür.

Erkən evlilik halları ilə bağlı daxil olmuş müraciətlər və mediada yayımlanmış məlumatlar da diqqət mərkəzində saxlanılmış və müvafiq araşdırmalar aparılmışdır. Qeyd olunmalıdır ki, Ombudsmanın əvvəlki illik məruzələrində erkən evlilik hallarının aradan qaldırılması məqsədilə irəli sürdüyü bir sıra təkliflər, o cümlədən Azərbaycan Respublikası Ailə Məcəlləsinin 10.2-ci maddəsinin (üzrlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər) çıxarılması ilə bağlı təklifi "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2024-cü il 28 iyun tarixli 1198-VIQD nömrəli Azərbaycan Respublikasının Qanununda nəzərə alınmışdır.

Ombudsman uşaq hüquqlarının müdafiəsi sahəsində beynəlxalq təşkilatlarla da əməkdaşlığını davam etdirmişdir. Belə ki, BMT-nin Uşaq Fondunun Azərbaycandakı Nümayəndəliyi ilə birgə əməkdaşlıqda "BMT-nin Uşaq Hüquqları Konvensiyası" adlı maarifləndirici vəsait hazırlanmışdır. Vəsaitdə "Uşaq hüquqları haqqında" Konvensiyada təsbit olunmuş maddələr uşaqlar üçün anlaşılan dildə təqdim edilmişdir.

Bununla yanaşı, məlumat üçün bildirmək istərdik ki, Ombudsman Aparatı insan alverinə qarşı mübarizənin bütün aspektlərini özündə birləşdirən milli fəaliyyət planlarının, proqramlarının, strategiyaların hazırlanması və həyata keçirilməsi prosesində yaxından iştirak etmişdir.

Hesab edirəm ki, insan alverinə qarşı mübarizə istiqamətində fəaliyyətin daha da uğurlu alınması üçün bu sahədə fəaliyyət göstərən qurumların birgə əməkdaşlığı olduqca vacibdir və müsbət nəticələr verməkdədir.

***Səbinə Əliyeva***
***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), hüquq üzrə fəlsəfə doktoru***

# Gəncədə miras qalmaqalı

## Zərifə Səfərova mərhum ərinin mirasının ədalətli bölünmədiyini iddia edir

***Gəncə şəhər sakini Səfərova Zərifə Salman qızı tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçinin məktubunu olduğu kimi dərc edirik:***

"Mən, Səfərova Zərifə Salman qızı, 2004-cü ildə Dəliməmmədli sakini Zeynalov Süleyman Rəhim oğlu ailə qurmuşuq. 2005- ci ildə bir qızımız olub. Bu insan məndən öncə ailəli olub və avtoqəza nəticəsində yoldaşı və oğlu rəhmətə gedib, bir qızı qalıb. Başqa bir qadından da daha bir qızı var.

Biz 2008-ci ildə müəyyən səbəblərdən boşanmışıq. O, 2020-ci ildə "Covid" virusundan rəhmətə gedib. Öldüyü vaxtadək uzun illər stomotoloq kimi fəaliyyət göstərib. Xoşbulaqda 3 sot torpağı, 2 maşını, Dəliməmmədlinin "kruq"unda - yolun kənarında böyük obyektləri olan bir evi, Cavadxanda 4 sotun içində olan bir evi var.



Goranboy məhkəməsi maşınları, evi və torpağı 3 uşaq arasında bölüb. 2021-ci ildən etibarən - 4 ildir məhkəmənin yollarında qalmışıq. Məhkəmə qətnamə çıxarıb ki, 2 maşın vərəsələr arasında satılıb bölünsün. Ancaq böyük qız olan Zeynalova Aişə Goranboyun rayon İcra şöbəsində icraçı işləyən Zaur Ağamirzəyev ilə danışaraq, işin icrasını dayandırıb. Dəfələrlə Zaur müəllimə, rəisi Rauf müəllimə müraciət etmişəm ki, bu şəxs maşınları aparıb, 3 ildir öz istifadəsində saxlayır, amma niyyəsə heç bir tədbir görülmür.

Bütün aidiyyəti orqanlara məktubla müraciət etmişəm, heç bir nəticə verməyib. Eyni zamanda, Gəncə şəhərində yerləşən İcra probasiya şöbəsinə gedib, ora da şikayət etmişəm, yenə nəticə yoxdur.

Nəhayət ki, Goranboy məhkəməsinin sədri dəyişdi, Tural Məmmədov sədr təyin olundu. Tural müəllim bizə kömək etdi, maşınları sata bildik.

Hazırda isə 1 ildir ki, Dəliməmmədlidəki evin 3 nəfər arasında bölünməsi üçün müraciət etmişik. Lakin yoldaşımın böyük qızı Əmlak İdarəsi ilə danışıb razılaşdığı üçün idarədən gəlib işlərini görmürlər.

Bərdə rayonunda yerləşən Əmlak Məsələləri Dövlət Xidmətinə getdim. Orada da kömək edəcəklərini bildirdilər. Amma təəssüf ki, səs çıxmadı.

Goranboy rayonundan Elşən müəllim adında əmlak işçisi gəldi ki, evi ölçməyə gəlmişəm. Mən də razı olmadım ki, bu, qarşı tərəflə anlaşıb, onun tanışıdır. Bərdənin öz işçisinin gəlməsini istədim. Bunun üçün təkrar Bərdəyə getdim. Xəyyam müəllimlə görüşdüm, ona da dedim ki, bu insanlar dostdurlar, tanışdırlar bitərəf adam gəlib ölçsün. Xəyyam müəllim göndərəcəyini söylədi, ancaq heç kim gəlmədi.

Təkrar Elşən müəllim ölçmək üçün gəldi və dedi ki, mən buranı bir dəfə ölçmüşəm, bir də ölçə bilmərəm, sizə rəy verə bilmərəm, siz birlikdə yaşaya bilməzsiniz.

Mən də Bakı şəhər əmlak idarəsinə şikayət yazdım. Natiq müəllimə buradakı işçilərin qanunsuzluqlarından, vətəndaşlara qarşı olan kobud rəftarlarından şikayət etdim. Heç bir faydasını görmədim. Məhkəmənin verdiyi qətnamə ilə Goranboy əmlak idarəsinə müraciət etdim ki, qızım Zeynalova Şeydaya düşən hissənin çıxarışını alım. Elşən müəllim, Sücaət xanım bizə dedilər ki, qətnamə ilə sizə çıxarış verə bilmərik, kasıb adamsınız, neynirsiniz çıxarışa pul verib, çıxın gedin evinizə. Bizi uzun müddət süründürəndən sonra axırda mən dava saldım, dalaşdım, yanımda da digər 3-cü varislə getmişdim. Dalaşandan sonra qətnaməmizi götürdülər, Dəliməmmədlidəki evin 25 %-ni mənim qızım Zeynalova Şeydaya, 25%-ni 3-cü varis olan Zeynalova Xədicəyə, 50%-ni isə böyük qıza, yəni Zeynalova Aişəyə böldülər. 25%-ə çıxarış üçün Xədicəyə 60 manat, Şeydaya isə 100 manat rüsum yazıblar. Gedib soruşuram ki, niyə mənə 60 manat yox, 100 manat yazmısınız? Deyirlər ki, sənə sənədin əslini vermişik. Başqa əməkdaş isə bildirdi ki, xidmət haqqını da sənə yazmışıq, get ondan al pulunu.

İllərdir məhkəmə və Əmlak Komitəsi arasında qalmışam. Hazırda Goranboy rayon məhkəməsinin sədri Hafiz Əliyev dəyişib, ümud edirəm ki, işimə düzgün baxılar. İsmayılov Cavidlə Əmlak İdarəsinin işçisi gəlib evin layihəsini çəkiblər. Evi əlimizdən almaq istəyirlər.

Əmlakda işləyən Elşən müəllimin hektarlarla torpaq sahəsi, obyektləri var. Halal qazancla onu almaq mümkün deyil. Mən isə heç yerdə işləmirəm, anama baxıram. Anam şəhid anasıdır.

İsmailov Cavid bizə deyir ki, sərəncamla olan Cavadxandakı evi 60 minə sataq, 30 min götürün, Dəliməmmədlidəki 150 minlik ev də mənə qalsın. Biz də razı olmuruq. Tələb etdiyimiz evin bir neçə çıxışı var. İcazə vermirlər ki, orada yaşayaq".

***Jalə FAMİLQIZI***

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# 6 uşaqla bir otaqda yaşayırlar, amma...

## Sosial yardım ala bilməyən Quba sakinindən nazirə müraciət

***Quba rayonu, Talabıqışlaq kənd sakini Qeybullayev Natiq Mehman oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Anar Əliyevə müraciət edir:***

"Hörmətli Anar Əliyev!

Mən, Quba rayon sakini Qeybullayev Natiq Mehman oğlu, yazaraq sizə problemimi çatdırmaq istəyirəm.

Bildirim ki, ailəliyəm, himayəmdə 6 uşağım var. 6-cı uşağım yeni anadan olub, uşaq pulu vermirlər. Yaşayış yerim bərbad vəziyyətdədir. Evim yanıb, ailəlikcə 1 otaqda yaşayırıq. Qonşuların köməyi ilə evin damını biraz düzəltmişik.

Sosial müavinətdən faydalanıb, uşaqlarımı dolandırmaq üçün müraciət etmişdim. Adıma torpaq sahəsi var, onun da vergisini ödəmişəm. Yoxlama gələn zaman şəraitin ağırlığını gördülər. Dedilər ki, mətbəxt, hamam otağı yoxdur, burda yaşamaq olmaz. Bildirdim ki, şəraitim yaxşı olsa, sosial yardım istəməzdim.

3 ay gözlədim, cavab gəlmədi. Böyük qızımın həmin ərəfədə 16 yaşı oldu. Bu zaman da bildirdilər ki, uşağın 16 yaşı olub, şəxsiyyət vəsiqəsi almamısınız, bu səbəbdən imtina verilir.

Uşağın sənədini düzəltdim, indi də təzə anadan olan uşağım üçün doğum şəhadətnaməsi çıxartmalıyam. Bir də indiyə kimi ödədiyim vergi silinib, yenidən 1 illik ödəniş etməliyəm.



Hörmətli Anar Əliyev!

Siz və rəhbərlik etdiyiniz qurumun digər səlahiyyətli şəxsləri hər kəsin imkanını öz cibinizdəki məbləğlə bir ölçməyin. Bir ailə 6 uşaqla eyni otaqda yeyir, içir, bişirir, yatırsa, deməli, vəziyyət ağırdır. Mənim imkanım biraz yaxşı olsaydı, sizin qurumun verdiyi 3-5 manata görə bu qədər əziyyət çəkməzdim. İmkanım yoxdur, uşaqlarıma baxmaqda çətinlik çəkirəm.

"1 illik torpaq üçün vergi ödəyin" deyə qanun qoymusunuz. Pulum yoxdur, necə deyim ki, sizi başa salım. Bir daha deyirəm, mənim cibimdə sizin cibinizdəki pulun 1 faizi olsaydı, heç müavinət üçün sizə müraciət etməzdim.

ASAN Xidmətə gedirəm, 1 aylıq körpə uşaq üçün sənəd almaq istəyirəm, deyirlər ki, uşağın 2 ayı tamam olsun, sonra gətirin. Bu, biz kasıb təbəqə üçün süründürməçilikdir. Açıq-aşkar "öl, yaşama!" deyirlər.

***Jalə FAMİLQIZI***

***Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.***



## Bəzi televiziya kanallarımız niyə peyk vasitəsi ilə yayımlana bilmir?

***2013-cü ilin fevralında ilk kosmik peykimiz "Azerspace" 1 və bir neçə il sonra isə ikinci kosmik peykimiz "Azerspace" 2 peyki orbitə buraxıldı. Təssüflər olsun ki, orbitdə 2 öz peykimiz olsada illərdir hələdə regional televiziya kanallarımız və internet televiziyalarımız peyk vasitəsi ilə yayımlana bilmirlər.***

Bu gün dünyada silahlı müharibələrdən daha çox informasiya müharibəsi gedir. Bu informasiya müharibəsində telekekanallarımızda mühüm rol onayıb, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında telekanallarımızın əvəzsiz rolu var. Bəs niyə öz peykimiz ola-ola regional və internet kanallarımızı peyk vasitəsi ilə izləyə bilmirik? Yerüstü yayımlanan ümumrespublika kanallarımızla yanaşı bölgələrimizdən yayımlanan çox gözəl regional kanallarımız var.

Məsələn, Gəncə şəhərindən fəaliyyət göstərən Kəpəz TV, Quba rayonundan fəaliyyət göstərən Qafqaz TV, Xaçmaz rayonundan fəaliyyət göstərən ARB Şimal, Lənkəran rayonundan fəaliyyət göstərən ARB Cənub, Yevlax rayonundan fəaliyyət göstərən EL TV, İsmayıllı rayonundan fəaliyyət göstərən İsmayıllı TV və s. regional kanallarımız olsa da illərdir öz peykimiz vasitəsi ilə yayımlana bilmirlər. Regional kanallarımızdan yalnız Naxçıvan TV prezidentin ötən ilki fərmanından sonra bu yaxınlarda Azerspace 1 peyki vasitəsi ilə yayıma başlayıb. İnternet televiziyalarımızdanda APA TV, SƏS TV, Səhiyyə TV, Dost TV, Asan TV və s. kanallarımız peyk vasitəsi ilə yayımlana bilmir. Sual olunur ,niyə peykimiz vasitəsi ilə bütün ölkəyə və dünyaya yayımlanmaq imkanı ola-ola regional və internet kanallarımız peyk vasitəsi ilə yayıma həsrətdirlər? Vətəndaşlarımız niyə regional kanallarımız və internet kanallarımızı peyk vasitəsi ilə izləyə bilmirlər?

Regional kanallarımızdan ikisi musiqi kanalı Ayaz TV və İsmayıllı TV bir neçə ay öncə Türksat peyki vasitəsi ilə yayıma başladı. Öz peykimiz ola-ola niyə bizim kanallarımız digər ölkələrin peykinə üz tutmalıdırlar? Regional kanallarımızdan bir neçəsinin əməkdaşı şəxsən mənə peyk vasitəsi ilə niyə yayımlanmırsınız deyə soruşanda bildirirlər ki, Azerspace peykində yayımlanmaq üçün bizdən elə böyük bir məbləğdə fantastik ödəniş tələb edirlər ki, Türkiyə peyki olan Türksat peykində və digər ölkələrin peykində yayımlanmaq bizə dəfələrlə ucuz başa gəlir.

Bu gün Rusiya kanalları öz peyklərində və bir neçə ölkənin peyklərində yayımlansada bu günlərdə illərdir Türksat peykində yayımlanan 2 Rusiya kanalı RTR Planeta və Rosiya 24 telekanalının ardınca digər Rusiya kanallarıda daha böyük auditoriyaya yayımlanmaq üçün Türksat peyki vasitəsi ilə yayıma başladı. Biz isə öz kanallarımızın öz peykimiz ola-ola peyk vasitəsi ilə yayımına imkan vermirik. Dünyanın heç bir öz peyki olan ölkəsində elə şey yoxdur ki, dövlətin öz peyki olsun və həmin ölkədə yayımlanan kanalların hamısı peyk vasitəsi ilə yayımlanmasın. Məsələn, qonşu Türkiyədə 476 kanal var bu gündə bir-birinin ardınca yeni kanallar açılmaqdadır və kanal yayıma başlamazdan əvvəl Türksat peykindən yayım üçün tezlik alır. Onsuz da ölkəmizdə digər ölkələrlə müqayisədə çox az kanal fəaliyyət göstərir. Məsələn, 3,8 milyon əhalisi olan Gürcüstanda 38 kanal fəaliyyət göstərir. Yeni kanallar açmaq əlimizdən gəlmirsə hal-hazırda fəaliyyət göstərən kanalların da yayımına mane olmayaq.

Ümid edirəm, tezliklə ölkəmizdə də bütün regional və internet kanalları peyk vasitəsi ilə yayıma başlayar.

***İlkin MƏMMƏDKƏRİMLİ***

# Xırdalan sakinləri susuz qalıb

*"Abşeron City"yə etiraz edən bir qrup sakin tərəfindən aidiyyəti qurumların rəhbərlərinə müraciət*

***Xırdalan şəhəri, "Abşeron City" yaşayış kompleksinin sakinləri - Əliyev Salman Salah oğlu, Əliyeva İruyyə Şirin qızı, Kərimova Xəyalə Salman qızı, Əlizadə Şəhriyar Ceyhun oğlu, Kərimov Telman Çingiz oğlu, Nuriyev Samir Cabir oğlu, Əlizadə Bəxtiyar Ceyhun oğlu, Xankişiyev Elman Aftandil oğlu, Niyazov Seyfalı Əbil oğlu, Cəlilov Ruslan Oktay oğlu, Kərimov Ayaz Azər oğlu, Novruzov Şahin Dağbəyi oğlu, Əliyev Elməddin Rövşən oğlu, Əzizov Fəyyaz İlyas oğlu, Carıyev Zamir Fəhlə oğlu və İsgəndərov İzzət Nurəddin oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Baş prokuror Kamran Əliyevə, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevə, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyevaya, Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevə, "Abşeron CITY" MTK-nın Baş direktoru Şahin Mirkişiliyə, eləcə də digər aidiyyəti qurumların rəhbərlərinə müraciət edən şikayətçilərin məktubunu olduğu kimi dərc edirik:***

"2025-ci ilin iyun ayından etibarən Xırdalan şəhəri, "Abşeron City" yaşayış kompleksində içməli suyun təchizatı dayandırılmış və iyul ayı da daxil olmaqla, iki aydan artıq müddətdə su verilməmişdir. Bu hal rəsmi bildirişsiz və qanunvericiliyin tələbləri pozularaq həyata keçirilmişdir.

Bu vəziyyət aşağıdakı hüquqi normaların pozulması deməkdir:

- Konstitusiyanın 39-cu maddəsi - Sağlam ətraf mühit və sanitariya təhlükəsizliyi hüququ;

- Konstitusiyanın 68-ci maddəsi - Maddi və Mənəvi ziyanın ödənilməsi hüququ;

- Konstitusiyanın 25-ci maddəsi - Hüquq bərabərliyi və ayrı-seçkiliyin yolverilməzliyi.

"İçməli su təchizatı və tullantı suları haqqında" qanunun 4-cü maddəsinə görə, suyun əvvəlcədən xəbərdarlıq edilmədən dayandırılması yolverilməzdir. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunda da qeyd olunur ki, göstərilməyən xidmətə görə ödəniş tələb oluna bilməz.



II bölmə - cinayət tərkibi və məsuliyyət daşıyan şəxslər

Aşağıdakı maddələr üzrə məsuliyyət əlamətləri mövcuddur:

Cinayət Məcəlləsi:

308.1 Vəzifədən sui-istifadə, hüquqların pozulması 3 ilədək həbs;

314.2 Ağır nəticəli səhlənkarlıq, gigiyenik böhran doğurması 5 ilədək həbs;

274. Etimada xələl yetirilməsi, dövlətə və ictimai inama zərər 5-12 il həbs.

İnzibati Xətalar Məcəlləsi:

247.0.1 İçməli suyun qanunsuz dayandırılması, xəbərdarlıqsız kəsilmə - 1500-3000 AZN cərimə;

370. Vəzifə borcunun yerinə yetirilməməsi, icazəsiz fasilə- 1000-2000 AZN cərimə və vəzifədən uzaqlaşdırma.

III bölmə - sosial və insani fəsadlar

- Körpələr, yaşlılar və xəstələr sanitariya böhranı ilə üzləşmişdir;

- Hamilə qadınların həyatı təhlükəyə məruz qalmışdır;

- Təcili tibbi yardım və yanğın təhlükəsizliyi imkanları məhdudlaşmışdır.

Bu hallar, eyni zamanda Konstitusiyanın 25, 39 və 68-ci maddələrinin kompleks pozulması kimi qiymətləndirilməlidir.

IV bölmə - ayrı-seçkilik əlaməti

Yalnız "Abşeron City" kompleksində suyun dayandırılması, digər ərazilərdə isə fasiləsiz təchizatın davam etməsi, sosial və ərazi əsaslı ayrı-seçkilik şübhəsi doğurur və hüquq bərabərliyinin pozulması anlamına gəlir.

V bölmə - zərərlərin qiymətləndirilməsi

Maddi zərər:

Verilməyən su xidməti üzrə ödəniş, alternativ su alınması (daşınma). Cəmi maddi zərər - 4800 AZN.

Mənəvi zərər:

- Aşura günlərində suyun olmaması dərin narazılıq yaratmışdır;

- Gündəlik həyat, gigiyena və ibadət ciddi şəkildə pozulmuşdur. Mənəvi zərər - 30.000 AZN.

Ümumi kompensasiya tələbi: 34.800 AZN

VI bölmə - müraciət məzmununda qaldırılan təkliflər

Sizlərə aşağıdakı məsələlərin nəzərdən keçirilməsini xahiş edirik:

1. İçməli suyun tezliklə bərpa olunması;

2. Su təchizatının kəsilmə səbəbi barədə rəsmi məlumat verilməsi;

3. Verilməmiş xidmət günlərinə görə ödənişlərin ləğvi və kompensasiya ödənilməsi;

4. Su maşınlarının təmin olunması (problemin tam aradan qaldırılmasına qədər);

5. Cavabdeh şəxslərin fəaliyyətinə hüquqi qiymət verilməsi və xidməti araşdırma aparılması;

6. "Azərsu" rəhbərliyi tərəfindən ictimai üzrxahlıq və rəsmi təminat təqdim olunması.

VII bölmə - müddət və hüquqi gözlənti

"Vətəndaşların müraciətlərinə baxılması haqqında" qanuna uyğun olaraq, 7 iş günü ərzində yazılı cavab verilməsini rica edirik.

Əgər müraciətimiz cavabsız qalarsa, aşağıdakı hüquqi addımların atılmasını planlaşdırırıq:

1. Baş Prokurorluğa təkrar müraciət və cinayət təqibi tələbi;

2. Ombudsman və beynəlxalq qurumlara məlumat verilməsi;

3. 34.800 AZN məbləğində kollektiv məhkəmə iddiası qaldırılması.

Ümid edirik ki, bu müraciət əsasında vətəndaşların konstitusion hüquqları müdafiə olunacaq, problemin səbəbləri obyektiv şəkildə araşdırılacaq və müvafiq şəxslər hüquqi məsuliyyətə cəlb olunacaqlar".

***Hazırladı: Jalə FAMİLQIZI***

***P.S. Məsələ ilə bağlı sakinlərin verdiyi əlaqə nömrələrinin heç birinə cavab verilmədiyi üçün qarşı tərəflə əlaqə saxlamaq mümkün olmadı. Yazıda adları çəkilən qurumların və şəxslərin mövqeyini dərc etməyə hazırıq.***

# Bakı sakini tikintidə çalışsa da, 1 ildən çoxdur pulunu ala bilmir

***Bakı şəhəri, Səbail rayonu, Gülbala Əliyev küçəsi, ev 9 ünvanında yaşayan İsmayılov Bəkir İsrafil oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, Emin Məmmədov adlı şəxs onu aldadaraq, pulunu mənimsəyib:***

"Mən, İsmayılov Bəkir İsrafil oğlu, yazaraq xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Bildirim ki, 2024-cü il, iyun ayının 4-də Məmmədov Emin Rahil oğlundan iş təklifi aldım. 8 Noyabr prospektində binaların təmirində işə başladım. İşin sonunda payıma düşən 1950 manatdan mənə cəmi 500 manat pul verdi. Qalan hissəni isə vermədi.



1 ildir "pulunu verəcəm" deyir, amma vermir. O pul mənim halal əziyyətimin qarşılığıdır. Amma günü-günə sataraq vermir".

Məsələ ilə bağlı Məmmədov Emin Rahil oğlu ilə əlaqə saxlamağa çalışsaq da, telefon zənglərimiz cavabsız qaldı.

***Jalə FAMİLQIZI***

***Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.***

# “Allaha əmanət olun...”

## Son sözünü müharibənin sonuncu günlərində demişdi, sonuncu gün Şəhid oldu...

***Şuşa şəhəri uğrunda döyüşlərə qatıldığı gün, noyabr ayının 7-də günortaya yaxın silahdaşlarından tağım komandiri, baş leytnant Teymur Tehran oğlu Məcidzadə (1992-2020) və Xüsusi Təyinatlı Heydər Ağahüseyn oğlu Qəmbərzadə (1997-2020) Şəhid olduqda Vüsal əllərini göyə açıb, Allaha dua etmiş və hərbçi çiyin yoldaşı Vahab Kərim oğlu Kərimova (1992) deyibmiş:***

- Mən də Onların yanında uzanacam...

Sonuncu Qələbə döyüşlərinə başlayacaqları ərəfədə, həmlə müddətində (30 oktyabr günündə) sonuncu dəfə atası-Valeh Rüstəmovla danışan gizir Vüsal deyib:

- Ata, çox söhbət edə bilmirəm, narahat olma, amma Allaha əmanət olun...

2020-ci ilin noyabr ayının 7-də Şuşa şəhəri uğrunda işğalçı “erməni” hərbi qüvvələrinə qarşı amansız və çətin döyüş-relyef şəraitində vuruşan Azərbaycan Silahlı Qüvvələrinin Quru Qoşunları döyüşçülərindən biri, gizir Vüsal valeh oğlu Rüstəmov da Uca, Müqəddəs Qatda Şəhidlik Məqamına yetişmişdir...



Əslən Beyləqan rayonu, Kəbirli kəndindən olan döyüş yoldaşı Vahab (hazırda N saylı hərbi hissədə xidmət edir, onlar birlikdə Quru Qoşunlarının 877 saylı hərbi hissəsində qulluq etmişlər) söyləyir ki, Vüsal Şəhid olan silahdaşlarımız üçün “Qurani-Kərim” surələrini oxuyar, yaralı qazilərə xüsusi diqqət yetirərdi, döyüşlərə birinci atılar, qorxu nə olduğunu bilməyən əsgər idi. Bu keyfiyyətlər Füzuli, Xocavənd, Cəbrayıl...ərazilərində gedən döyüşlərdə dəfələrlə təkrar olunmuşdur.

Füzuli rayonu ərazisindəki “keçilməz səddləri” ələ keçirib, Bayraqlar sancıldıqca cəbhə xətti getdikcə genişlənirdi, Cəbrayıl rayonu ərazisindəki İlandağ mövqeyi alındıqdan sonra istiqamət Xocavənd və Şuşa şəhərlərinə doğru olmuşdur, qarış-qarış...addım-addım...

Artıq noyabr ayının 4-də Daşaltı kəndi üstündə mövqe tutub Şuşa şəhəri uğrunda həbi əməliyyatlara hazırlaşırdıq...Bu vaxt Vüsal xalası oğlu, Daxili Qoşunlarn 052 saylı hərbi hissəsinin tağım komandiri, baş leytnantı Təhmasib Sərməs oğlu Mustafayevin (1999-2020) Şəhid olduğunu öz gözləri ilə gördü...

Şəhid atası, I Qarabağ müharibəsi Qazisi Valeh Məhəmməd oğlu Rüstəmovun (1964) dediklərindən:

- Cəbrayıl rayonu, Alıkeyxalı kəndində 12 mart 1993-cü il tarixdə doğulan Vüsal hələ körpə ikən “erməni” işğalçılarının zülmünə məruz qalmış, ailəliklə Xudafərin körpüsünü keçərək əvvəlcə Şirvan şəhərində, 1995-ci ildən isə Bakı şəhərində məskunlaşmışdıq (Yasamal rayonu, Z.Xəlilov küçəsindəki yataqxanaların birində). İlk təhsilini Vüsal 53 saylı tam orta məktəbində aldıqdan sonra, 2011-2013-cü illərdə həqiqi hərbi xidmətini Qazax rayonundakı N saylı hərbi hissədə keçirmiş və artıq bu müddətdə ömürlük niyyətini-hərbçi olmağı qətiləşdirmişdir. 2019-cu ildə Pirəkəşkül hərbi mərkəzində gizirlik kursunu keçdikdən sonra Göranboy və Mingəçevir şəhərlərində Quru Qoşunlarının hərbi bölmələrində qulluq etmişdir...



(Şəkildə soldan ikinci Vüsal Valeh oğlu, kənarda ayaq üstə-Teymur Məcidzadə...)

07 noyabr günü, Daşaltı kəndi üstündə, Cıdır düzü altındakı çılpaq qayalıqların sinəsində “səngər” quran Vüsal, Vahab və 2 nəfər Xüsusi Təyinatı ilə bir yerdə axşam saat 22 radələrinədək qaldıqda, həmin mövqelər güclü minamyot və top atəşlərinə tutulmuşdur. Hava çiskinli, yağışlı idi....Və mərmi “yağışları”ndan qurtulmaq üçün yerlərini dəyişəndə...artıq Vüsalı yanlarında görməyən döyüşçülər....Vüsalın Şəhid olduğu Məqamda Onu ayın 8-də götürə biliblər, Vahab isə ağır yaralanmışdır...

Anası Aidə Əlistan qızı Haqverdiyevanın (1967), böyük qardaşı Şövqünün (1990) xatirələri isə Vüsalın unudulmaz adının yaşanmasında acı-nisgilli ruha bağlı olsa da, əslində Cənnət qoxulu hisslərdən yoğrulmuşdur. Bu xatirələr hər an, hər gün, unudulmaz Vaxt örtüyünə bürünmüşdür...

Cəbrayıl rayonu uğrunda gedən döyüşlər zamanı anasına son zənglərində deyibmiş:

- Ana, doğulduğum torpaqlarday-am...bu yerlər cənnət imiş, ay Ana...İnşallah torpaqlarımızı azad etdikdən sonra toyumu bu torpaqda, kəndimizdə edəcəyik...Ana...

Qardaşı Şövqü isə oktyabr ayının son günlərinə kimi Qardaşı ilə cəbhə bölgələrində canlı görüşürmüş...

“Vətən uğrunda”, “Şuşanın azad olunması uğrunda”, “Füzulinin azad olunması uğrunda” medalları ilə təltif edilmiş Şəhid Vüsal Valeh oğlu Bakı şəhəri, Binəqədi rayonu, Sulutəpə qəbirstanlığındakı “Şəhidlər xiyabanı” nda dəfn edilmişdir...

*Qismət YUNUSOĞLU*
*Bakı Dövlət Universitetinin müəllimi*



# Vətənləşən ömür...

***İkinci Qarabağ müharibəsində Azərbaycan xalqı yenilməz, mübariz olduğunu şəhidlik zirvəsinə ucalan qəhrəman övladlarının şücaəti ilə bir daha bütün dünyaya bildirdi. 30 iyun 1989-cu ildə Cəlilabad rayonu, Adnalı kəndində dünyaya gələn Xəqani Fətiyev də həmin haqq savaşımızda Vətən torpağının azadlığı uğrunda özünü fəda edib şanlı tariximizə adını yazanların sırasında durur. Xəqani müharibə başlanan gündən döyüşlərə atılıb, son nəfəsinə qədər yağının kabusuna çevrilib.***

Şərəfli ölümü ilə vətənləşən Cəlilabadın qeyrətli oğlu milyonların ürəyində özünə yer etməklə bərabər, həm də dövlət tərəfindən “Vətən uğrunda”, “Cəsur döyüşçü” və digər medallara layiq görülüb. Beş övladı da canından artıq sevdiyi Vətəninə yadigardır. Onun şəhadətindən sonra dünyaya gələn beşinci övladı şəhidin adını daşıyır.

Vətənə, millətinə məhəbbət Xəqani Hüseynəli oğlunun daxilindən, qanından, genindən gəlirdi. Müstəqil həyatına başlayanda bütün arzuların zirvəsində doğma yurdunun tərəqqisi, el-obanın xoşbəxtliyi dayanıb. Qarabağı işğal etmiş erməni faşistlərin hərəkətləri ilə heç cür barışa bilməyib. Saf vicdanı onu bir qayda olaraq Vətən torpağına dadanmış yağıdan qisas almağa səsləyib. Məhz Xəqani 2007-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarına müddətli həqiqi hərbi xidmətə yola düşəndə birinci növbədə Qarabağın azadlığını düşünüb. Cəbhə bölgəsinə düşdüyü üçün bunda qurur duyub. Məqamı çatanda xalqımıza qarşı törətdiyi vəhşiliklərə görə erməni daşnaklarla sona qədər vuruşub qisas alacağına and içib.

Əsgər Xəqani layiqli bir övlad kimi Vətən qarşısında borcunu şərəflə yerinə yetirib. Mərdliyi, cəsarəti, ağıllı hərəkətləri həmişə ona uğur qazandırıb. Əsgərlikdən üzüağ tərxis olunsa da, Vətənin çətin günündə evdə qalmağı özünə bağışlamır. Yerini əlində silah cəbhə bölgəsində görüb. Odur ki, 2014-cü ildə yenidən orduya qayıdıb. Müddətdən artıq hərbi xidmət qulluqçusu olaraq Vətən torpaqlarını düşmən hiyləsindən qoruyub. Eləcə də müharibə meydanında düşmənlə üz-üzə gələndə vaxtında onun cavabını vermək üçün hərbinin qanunlarına mükəmməl yiyələnib. Əsl hərbiçiyə məxsus xüsusiyyətlərlə zabitlərin, əsgərlərin diqqətini cəlb edib.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Xəqani Hüseynəli oğlu 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən ölüm-dirim savaşına girib. Yağıya od qoymaqla həqiqi Vətən oğlu olduğunu göstərib. Çox yerdə torpağa axıtdığı qan Azərbaycanın üç rəngli qələbə bayrağına dönüb. Xəqani son gərgin döyüşlərdə yaralı hərbçi yoldaşını xilas edərkən qəhrəmancasına şəhid olub. Özü düşmən gülləsinə tuş gəlsə də, onun igidliyi əsgərlər arasında qələbəyə ruh yüksəkliyi yaradıb, Vətənə, torpağa sonsuz məhəbbət hissi aşılayıb...

*Zəfər ORUCOĞLU,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*



# Məhkəmələr "qanun yazır"?

## Bakı Apellyasiya Məhkəməsi Nəsimi məhkəməsinin qanuna "düzəlişini" təsdiqləyib

***8 aydır Nəsimi məhkəməsi cavabdeh AZAL-ın beynəlxalq daşımaçılıq qaydalarını pozmasından dəyən maddi-mənəvi ziyanın beynəlxalq Monreal Konvensiyasına uyğun ödənilməsi barədə iddiamızı süründürür. Hakim Ramin Xəlilov MPM-in 78.2 maddəsi əsasında cavabdehdə olan kamera görüntülərinin və sərnişin siyahısının təqdim olunması haqqında vəsatət içində olmaqla heç bir müraciətə cavab vermir. Yalnız işin arbitrajın həllinə verilməsi barədə vəsatətə imtina qərardadı ilə cavab verib ki, cavabdeh AZAL razı deyil. Halbuki beynəlxalq mübahisənin predmeti olan iddianın arbitrajın həllinə verilməsi MPM-in 29-cu maddəsində yazılıb və hakim özü bunu tərəflərə təklif etməyə borcludur. Qanunda qarşı tərəfin razılığının tələb olunması nəzərdə tutulmasa da, hakim Ramin Xəlilov özünü cavabdehin vəkili rolunda aparıb və hətta imtina qərardadından 6 şikayəti 3 aydır inadla geri qaytarır ki, birbaşa kabinetdən Ali Məhkəməyə kassasiya şikayəti verilməlidir. (?)***

3 aydır ali dövlət hakimiyyəti orqanları AZAL-ın tərəfdarı-"fanatı" hakimə anlada bilmirlər ki, birinci instansiya məhkəməsinin qərardadından şikayətin geri qaytarılması qanunda-MPM-də yazılmayıb. MPM-in 269-cu maddəsində yazılan odur ki, qərardaddan şikayətə aktı çıxarmış hakim 3 gün müddətində yazılı icraat qaydasında baxır; şikayət əsaslıdırsa, qərardadı ləğv edir və sonrakı prosessual hərəkətləri edir; əks halda şikayəti 7 gün müddətində iş materialları ilə birlikdə apellyasiya instansiyasına, məhkəmə aidiyyatından şikayətləri isə kassasiya instansiyasına göndərir.

Ramin Xəlilov özbaşınalığına qanuna "düzəliş" etməklə haqq qazandırıb. 6 şikayətə MPM-ə uyğun baxmayan hakim özünün qərardadlarının nəticə hissəsində 3 aydan sonra yanlışlıq tapıb və bu yanlışlığı "düzəldib": "Qərardaddan 10 gün müddətinə Nəsimi məhkəməsinə elektron kabinetdən ŞİKAYƏT verilə bilər" qərarı hakimin böyük səhvi imiş, heç demə, ŞİKAYƏT yox, "KASSASİYA ŞİKAYƏTİ verilə bilər" olmalı imiş! Qanuna "düzəliş" özbaşınalığından hakim özünü elə itirib ki, elektron kabinetdən KASSASİYA ŞİKAYƏTİNİN mümkün olmadığını, belə şikayət "pəncərə"sinin açılmadığını" da unudub. Görəcəkli günlərimiz varmış, məhkəmə "qara otaqda olmayan qara pişiyi tutmağı" tələb edir!

Heç demə, görəcəklərimiz hələ qabaqda , Bakı Apellyasiya Məhkəməsinin sədri Azad İmanov olan heyətinin qanuna "düzəlişi" təsdiqləməsində imiş! Bəli, bəli, Azad İmanov və heyəti şikayətin "ağına-bozuna" baxmadan aşağı instansiyanın "düzəliş" hüququnu" qanuni sayıb və notariat kontoru kimi təsdiqləyib.

İndi tam hüquqsuz və çıxılmaz durumdayıq, faktiki məhkəmə müdafiəsi hüququndan məhrum edilmişik. Nədən birbaşa kassasiya şikayəti vermək hüququmuz aktlaşdırılıb, amma elektron kabinet qəbul etmir, kağız daşıyıcıda şikayəti Ali Məhkəməyə göndərmək də qanunda yazılmayıb, yalnız qərardadı çıxaran Nəsimi məhkəməsi vasitəsilə şikayət Ali Məhkəməyə göndərilə bilər . Lap məktubla göndərsək də, hər 2 aşağı instansiyanın dövlət hesabına vəkildən imtina etməsi məhkəmə təminatı hüququmuzun pozulması ilə nəticələnib.

Şikayətlər isə sonucsuzdur. Kimə üz tutaq? Rusiyada məhkəməyə müraciət etmək olar, di gəl bir ildir nə XİN konsulluq xidməti ilə, nə baş prokurorluq beynəlxalq idarəsi ilə, nə də Ombudsman müvəkkillik xidməti ilə hüququmuzu qorumağa çaba göstərir. Ombudsman məhkəmə özbaşınağını hakimlərin fəaliyyəti kimi qiymətləndirib, bu fəaliyyəti yoxlamaq hüququnun olmamasını "reklam müvəkkilliyi" ilə vurğulayır, KM Aparatı 15 aydır Ali Məhkəmənin 3 qərarından şikayətimizi örtbasdır edir, PA, MM, MHŞ hüquq pozucularını cavab verməyə çağırır. Hüquq isə bərpa olunmur ki olunnmur!

***Məğrur BƏDƏLSOY***

# Özbaşına tikilinin sökülməsi ilə əlaqədar mübahisələrdə əsas məqamlar





*Aysu NƏBİZADƏ*
*Hüquqşünas*

***Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 180.1-ci maddəsinə əsasən tikinti məqsədləri üçün ayrılmayan torpaq sahəsində və ya buna lazımi icazələr almadan və ya şəhərsalma və tikinti normalarını və qaydalarını ciddi surətdə pozmaqla tikilmiş yaşayış evi, digər tikili, qurğu və ya başqa daşınmaz əmlak özbaşına tikinti sayılır.***

Özbaşına tikili üzərində şəxs sərəncəm səlahiyyətini həyata keçirə- sata, bağışlaya bilməz. Lakin qanunverici şəxsə hüquq verir ki, həmin torpaq sahəsi onun mülkiyyətindədirsə, mülkiyyət hüququ tanınsın. Təbii ki, burada bir sıra faktorlardigər şəxslərin həyatı sağlamlığı üçün tikilinin təhlükə yaradıbyaratmaması kimi hallar nəzərə alındıqdan sonra bu hüququn tanınması mümkündür.

Bəs özbaşına tikilinin sökülməsini tələb etmək hüququ olan şəxslər kimlərdir? Maraqlı tərəf kimdir?

- Müvafiq icra hakimiyyəti orqanlarının və ya maraqlı tərəf. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 180.4-cü maddəsindən görünür ki, lazımi icazələr almadan tikilmiş bina və qurğular müvafiq icra hakimiyyəti orqanlarının və ya maraqlı tərəfin müraciəti üzrə qəbul edilmiş məhkəmənin qərarı əsasında sökülə bilər. Müvafiq maddədə əsas mübahisəli məsələ "maraqlı tərəf" anlayışı düzgün təfsir olunmamasıdır. Belə ki, məhkəmə təcrübəsi göstərir ki, söküntü ilə bağlı mübahisələrdə məhkəməyə daha çox müraciət edən vətəndaşlardır. Məhkəmələr isə maraqlı tərəf kimi daha çox əşya hüquqları olan şəxsləri tanıyırlar. Bu isə iddiaların təmin olunmamasına səbəb olur. Halbuki maraqlı tərəf dedikdə, özbaşına tikilinin sökülməsi ilə onun hər hansı hüquq və mənafeyinin təmin ediləcəyi şəxs nəzərd tutulmalıdır.

Daha sonra özbaşına tikilinin yerləşdiyi torpaq sahəsi şəxsin mülkiyyətindədirsə, iddianın rədd edilməsi üçün əsas ola bilərmi?

Mülki Məcəllənin 180.3-cü maddəsinə əsasən əgər tikintinin saxlanması digər şəxslərin hüquqlarını və qanunla qorunan mənafelərini pozursa və ya fiziki şəxslərin həyatı və sağlamlığı üçün təhlükə yaradırsa, göstərilən şəxsin özbaşına tikintiyə mülkiyyət hüququ tanına bilməz. Bu cür iddialarda özbaşına tikilinin başqa şəxslərin hüquqlarının pozulmadığı və həyatı sağlamlığı üçün təhlükə yaratmadığını sübutetmə yükü cavabdehin üzərinə düşür. Əgər mülkiyyətçi cavabdeh mülkiyyət hüququnun tanınması barədə iddia verməyibsə də, həmin tikintinin təhlükəsizlik qaydalarına uyğun inşa edildiyini, metal konstruksiyaların uçması, qopması və ya aşması təhlükəsinin olmadığını, o cümlədən yanğın təhlükəsizliyi qaydalarına əməl edildiyini təsdiq edən sübut təqdim edə bilmirsə, özbaşına tikili sökülməlidir.

Özbaşına tikilinin yerləşdiyi ərazidə yaşayan iddiaçının yaşadığı evə mülkiyyət hüququnu təsdiq edən sənədin olmasına ehtiyac varmı?

Qanunverici iddiaçılara dair hər hansı təsdiqedici sənədin olmasını tələb edir. Bu baxımdan iddiaçının yaşadığı evə dair hüquqmüəyyənedici sənədin olmaması iddianın rədd edilməsinə əsas ola bilməz. Burada hesab edilir ki, iddiaçının həmin yerdə yaşaması faktı kifayətdir. Çünki təhlükəsiz yaşamaq hüququnun müdafiə olunması Azərbaycan Respublikası Konstitusiyasının 31-ci maddəsində nəzərdə tutulmuşdur.

Özbaşına tikilinin yerləşdiyi ərazidə neft-qaz hasilatının aparılması hallarında tikilinin sökülməsi ilə bağlı məsələlər necə tənzimlənir?

Məhkəmə praktikasına əsasən , "məhkəmələr ilk növbədə tikililərin sökülməsi və cavabdehlərin çıxarılması tələblərinin icrasının təciliyi ilə bağlı zərurətin mövcudluğuna dair iddiaçının dəlilləri üzrə araşdırma aparmalı, bu halın mövcud olmadığı, habelə öz təsdiqini tapmadığı halda isə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 220.6-cı maddəsində nəzərdə tutulmuş imkandan istifadə etməklə, qətnamənin icrası müddətinin müəyyənləşdirilməsinə dair məsələni müzakirə etməlidirlər. İcra müddətinin göstərilməsinin zəruriliyi ilə bağlı qənaətə gəlindiyi halda isə, məhkəmələr qətnamənin nəticə hissəsində "Qətnamə həmjn ərazidə neft-qaz hasilatının təmin edilməsi üçün nəzərdə tutulmuş əməliyyatların başlandığı zaman icra edilsin" məzmununda bənd əlavə edə bilərlər.

Formalaşmış praktika müəyyən edir ki, bu qəbildən olan mübahisələrdə özbaşına tikilinin sökülməsinə səbəb olan tədbirin həyata keçirilmə tezliyini, təciliyi qiymətləndirmək zəruridir. Əks halda özbaşına tikili olsa belə vətəndaşa edilən müdaxilə adekvat xarakter daşımayacaqdır.

# Şəkinin daha bir istedadlı ifaçısı



***Yazı müəllifi olaraq deyirəm ki, mən bu ədəbli, əxlaqlı və istedadlı oğlanı AMK tərkibində Musiqi Kollecində dərs dediyim illərdən tanımışam. O, tələbə kimi öz işini yerinə yetirməkdə və təhsil alaraq inkişafa yol almaqdaydı. Son dövrlərdə isə onu təsadüfən bir sıra TV verilişlərində musiqi qruplarının tərkibində ifa edən görmüşəm.***

Hüsnü Gülağa oğlu Sədiyev 1988-ci il dekabrın 1-də Şəki şəhərində ziyalı ailədə dünyaya gəlib. O, ailənin tək övladıdır. Gülağa Sədi oğlu Sədiyev (1955-2020) Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstiutunu bitirmiş və Şəki şəhərinə qayıdaraq daim öz ixtisası üzrə işləmişdir. Son dövrlərdə Şəki Regional Yol Yaşıllaşdırma İdarəsinin mühəndisi olmuşdu. O, sənətini, çalışdığı sahəni ürəkdən sevib sədaqət göstərərək, regionda yaxşı, gərəkli insan kimi tanınmışdı. Gülağa bəy Şəkidə tanınan nəslin nümayəndəsi kimi həmişə nümunəvi və diqqətdə olaraq böyük hörmət-izzət sahibi idi. Əbəs deyil ki, onun tək övladı Hüsniyə də Şəkidə hamı hörmətlə yanaşır və xətrini əziz tutur.

Evin xanımı Nəsibə Məhərrəməli qızı Abasova-Sədiyeva 1957-ci ildə Şəkidə anadan olub. Maliyyə Kredit Texnikumunu bitirib. Şəki Sığorta İdarəsində işləyib. Bu mehriban ailə böyüklərin, nəsil ağsaqqallarının tövsiyəsi və xeyir-duası ilə 1981-ci ildə qurulub.

Hüsnü Sədiyev 1994-2003-cü illərdə Şəki 11 saylı ümumtəhsil məktəbdə oxuyub. Həmişə dərslərə hazırlıqlı şagird kimi tanınıb. O, ümumtəhsil məktəbin 9-cu sinfini bitirib. 1997-2002-ci illərdə Şəki 2 saylı uşaq musiqi məktəbinin qarmon sinfində oxuyub. Bu sənətin ilk qaydalarını, sirləri ixitisas müəllimi Eldəniz Məmmədovdan öyrənib. Müəllimi həmişə Hüsnüdən razı qalıb. Hüsnü musiqi məktəbinin sevimli, tanınan şagirdi olaraq diqqət çəkirdi. Yarım ilin və ilin yekun imtahanlarında ən yaxşı göstəricilərlə ixtisas müəllimi və məktəb rəhbərliyini sevindirirdi. Hüsnü musiqi məktəbinin xalq çalğı alətləri ansamblı və orkestrin fəal üzvü idi. Bütün məşqlərdə olur, proqramı səviyyəli olaraq mənimsəyir və konsertlərdə çıxış edirdi. Məktəbin heyətilə Şəkidə keçirilən dövlət tədbirlərində və konsertlərdə çalırdı. O, musiqi məktəbini əla qiymətlərlə bitirib.

Hüsnü musiqi məktəbi illərində evdə "Kazan" qarmonu ilə mehriban dostluq edərək müntəzəm səsləndirirdi. Onu dinləyirəm: "Heç zaman ata-anam mənə deməzdilər ki, götür qarmonunu çal. Özüm sərbəst olaraq qarmonu ifa edir, məşqlərimi davam etdirir və valideynlərimi sevindirirdim. Anam ev işləri ilə məşğul olur, atam mənim ifamı həmişə izləyir və xoş sözlər bildirirdi. Təbii ki, mətbəxdən anamın da tərifli sözləri gəlirdi. Bəzən anam da gəlib məşqləri böyük həvəslə dinləyər, hər dəfə fərəh hissi keçirər və çöhrəsinə sevinc qonardı. Atam həmişə mənim bu işimə dəstək olurdu və arzusu mənim musiqiçi olmağım idi. O da uşaq vaxtı qarmon dərsinə getmişdi, onun "Kazan" qarmonu ilə çalırdım".

Gülağa Sədiyev məktəb illərində Şəki pioner və məktəblilər evinin (hazırda uşaq-gənclərin inkişaf mərkəzi) qarmon dərnəyinə gedirdi. Burada 2 il məşğul olmuş, əvvəl Faiq, sonra Zair müəllimdən dərs almışdı. Hüsnü evdə məşq edərkən ata da bəzən yadında qalan mahnı və rəqs havalarını çalardı.

Hüsnüdən eşitdiyim: "Evdə muğamları çalarkən, atam mütləq mənim "Segah" ifamı da istəyirdi. Deyirdi ki, "Segah"ı yaxşı çalan, digər muğamları rahat öyrənə bilər. O, mənim qarmon ifaçılığı ilə ciddi məşğul olmağımı tələb edir və bu işin məndə alınacağına inanırdı".



Təbii ki, ziyalı insan olan ata oğulun gələcəyini düşünür və onun həqiqi, mükəmməl sənət adamı olmağına çalışırdı. Bəli, ata Uca Allahın ona bəxş etdiyi şirin nemətin, övladın xoşbəxt gələcəyi üçün çalışır və ona nail olmaq ümidilə yaşayırdı.

H.Sədiyev ümumtəhsil məktəbin IX sinfini bitirərək Bakıya yol alıb. O, 2003-2007-ci illərdə Azərbaycan Milli Konservatoriyası tərkibində Musiqi Kollecinin qarmon sinfində oxuyub. Burada onun ixtisas müəllimləri Sərxan Abıyev (not) və Nemət Hüseynov (muğam) olub. O, hər iki müəllimdən mükəmməl qay-



daları öyrənib. Not dərsləri onun Azərbaycan, rus və dünya bəstəkarlarının əsərləri ilə yaxından tanış edib və texniki ifa imkanlarını daha da artırıb. Nemət Hüseynov sevimli tələbəsinə klassik muğamları layiqincə öyrədib. Hüsnü dərslərdən əlavə Nemət müəllimin radio-televiziyadakı, toylardakı, bir neçə tədbirdəki ifalarının audio, video kasetlərdəki bütün ifalarına əldə edərək, buna xüsusi maraq, diqqət göstərərək və çox şey öyrənərək gündən-günə inkişaf etməkdədir. Əlsində o, indi də ustadı Nemətin sənətindən öyrənməkdədir.



Sual: - Kollecin xalq çalğı alətləri orkestrinin üzvü idin?

-Bəli, həmin orkestrin bütün məşqləri və konsertlərində iştirak etmişəm.

-Tələbəlik çağında qarmon sənəti ilə bağlı daha kimlərdən öyrənirdin?

-Ənvər Sadıqovun, Xanlar Cəfərovun bütün ifalarını əldə edərək diqqətlə dinləyir və öyrənirdim. Sonralar Avtandil İsrafilovun zəngin sənətinə də maraq göstərdim. Əslində, Ənvər Sadıqov həmişə mənim kumirim olub, elə indi də onun sənəti mənim üçün əsl nümunədir və yenə də öyrənməkdəyəm. Hazırda onunla lap yaxın münasibətdəyəm, bəzən onun boş vaxtları olanda zəngləşib sənətkarın "Renever" studiyasına gedirəm. Çay süfrəsi arxasında ustadın maraqlı söhbətləri və tövsiyələrini dinləyərək biliyimi artırıram.

Hüsnü tələbəlik illərində Bakıdakı müxtəlif şadlıq saraylarındakı, restoranlardakı musiqi heyətlərinin tərkibində şənlik tədbirlərində və toylarda qarmon çalırdı. O, bu şəhərdə yaşıdları olan ifaçılarla, tələbə yoldaşları ilə birlikdə çalışmaqda və müştərək çalğı öyrənməkdə idi. Bu gənc öz yoldaşları ilə Bakı qəsəbələrində keçirilən çadır toylarına gedər, sənətkarları dinləyər və repertuar öyrənərdi.

Əsərimizin qəhrəmanı kolleci uğurla bitirmiş və əsgər çağırılmışdı. O, Bakıdakı 112 saylı hərbi hissənin musiqi rotasında 1 il 6 ay xidmət edərək tuba çalıb. Hərbi xidməti bitirəndə onu müddətdən artıq xidmət kimi orada saxlamaq istəsələr də o, razılaşmamışdı. Onu hərbidə ona görə saxlamaq istəyirdilər ki, işinin öhdəsindən yaxşı gəlir, tubanın bas notlarını, ümumiyyətlə ifa qaydalarını əla öyrənmişdi, həm də bütün məsələlərdə səliqə-səhmanlı, çox ciddi və dəqiq idi. Yəni o, hərbi orkestrdə çalışmağa tam layiq idi. Çox əfsus ki, Hüsnü hamıya qismət olmayan bu lazımlı təklifi qəbul etməmişdi. Bu, hazır iş yeri idi. Axı ölkəmizdə daimi iş yeri tapmaq asan deyil və hər kəsə nəsib olmur.

Onun fikirləri: "Mən Bakıda qalıb işləmək istəsəm də, atam məni Şəkiyə dəvət etdi ki, evləndirsin.

Şəkidəki 4 saylı uşaq musiqi məktəbinin qarmon sinfində dərs demək üçün işə girdim. Bundan başqa "Zirvə" xalq instrumental ansamblda bir müddət fəaliyyət göstərdim. Burada çalışmaq böyük məsuliyyətdir. Axı həmin ansamblda nadir istedada malik nümayəndələr, həmçinin ustad qarmonçalan Zair Mustafayev çalıb".

Bir zamanlar Space televiziyasında Virtuoz adlı SMS-lə musiqi yarışmaları keçirilirdi. Hüsnü Sədiyev belə yarışmaların birində çıxış edərək musiqisevərlərin diqqətini özünə çəkmişdi. Münsiflər heyətinin tərkibində Avtandil İsrafilov, Elman Namazoğlu, Həsənağa Sadıqov və başqaları vardı. Müsabiqə üçün üç tur (mərhələ) nəzərdə tutulmuşdu. Hüsnü birinci turdakı ifasıyla münsiflər heyətinin, xüsusilə Avtandilin diqqətini cəlb etmişdi. Həmid Haqverdiyevin "Həmidi" rəqsi gəncin ifasında gözəl səslənmişdi. Ustad Avtandil yüksək fikir söyləmiş, Həmid haqqında da danışmış, Hüsnüyə demişdi ki, sən hazırsan, sonuncu turda gələrsən. Hüsnü yarışma üçün ustadın dediyi repertuarı hazırlayıb ifa edirdi. Sadəcə ona gələn SMS-lər az olduğu üçün o, qələbə qazana bilməmişdi. Onun fikirlərindən: "Heç kəslə əlaqə saxlamırdım ki, mənə SMS-lər göndərin".

Belə yarışmada çıxış etməsi artıq gənc yaşlarda ona stimul vermiş, çalğı manerasına güc-qüvvət qatmış, sənət ovqatını daha da yüksəltmiş və yaxşı qarmonçalan kimi tanınmasına müəyyən təkan vermişdi.

Budur o, daim öz üzərində çalışmaqda, axtarışlarda olmaqda və inamlı sənət eşqi ilə yaşamaqdadır. Bir zamanlar filarmoniyada məsul şəxslər onun çalğısını diqqətlə dinləyib bəyənmişdilər. Məqsəd onu Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının tərkibinə cəlb etmək idi. Ona yarım ştatda çalışmaq təklif olunduğu üçün Hüsnü razılıq verməmişdi. Bütöv ştatda isə yer yox idi.

Hüsnü Sədiyev 2010-cu ildə sinif yoldaşı Günay Telman qızı Abdullayeva-Sədiyeva ilə ailə qurub. Günay xanım Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialını qırmızı diplomla bitirib.

Bu xoşbəxt və hörmətli ailədə iki oğul böyüyür. 2011-ci ildə Sübhi və 2013-cü ildə Gülağa dünyaya gəlib. Ailə 2014-cü ildə Bakıya köçüb və mənzil alaraq burada məskunlaşıb. Günay Nizami rayon 242 saylı tam orta məktəbdə dərs deyir.

İnternetdə maraqlı, təmtəraqlı, çoxqonaqlı və musiqi repertuarı ilə zəngin bir toy şənliyinin video çəkilişləri yayımlanmaqdadır. Toyu Ənvər Sadıqov öz təbriki ilə açır və "Qaytağı" qrupu ilə milli musiqimiz əsasında gözəl kompozisiya təqdim edir. Məclisin sonuna qədər burada bütün say-seçmə ifaçıların çıxışı sərgilənir. Bu hörmətli məclis Hüsnü Sədiyevin oğlu Gülağanın kiçik toyudur. Videoya tamaşa etdikcə adam məəttəl qalır ki, Hüsnü gənc yaşlarında belə hörməti necə qazanıb?! Reallıq budur ki, bu belədir. Allah qorusun və uğur əta eləsin. Ailə xoşbəxt yaşasın, övladların böyük toyunu və xoşbəxt həyatını görsün. Amin!

Hüsnü Sədiyev tədricən musiqi cameəsində daha artıq tanınmaqdadır. Buna səbəb onun sənətdə də, həyatda da səliqəli, mədəni və əxlaqlı olmasıdır. Hə, belədir. Sənət işlətmək üçün müəyyən qaydalar var ki, bunlara əməl etməyən çox yerdə lazım ola bilməz. Bu barədə Hüsnü nümunə kimi özünü doğruldur. O, Bakıda musiqi qruplarında özünü təsdiq etməkdə, rahat çalışmaqla ruzisini qazanmaqdadır. H.Sədiyev tanınan müğənnilərdən Samir Cəfərov, Ayaz Qasımov və Gülay Zeynallı ilə birlikdə çalışmaqla onları studiyalar, konsertlərdə, bədii-kütləvi tədbirlərdə və toylarda müşayiət etməkdədir.

***Əhsən RƏHMANLI***
***Tədqiqatçı,***
***sənətşünaslıq üzrə***
***fəlsəfə doktoru***

# Səkkiz simvollu Poetik esse nümunəsi



**Anar Ərtoğrul Burcəliyev**
**Teatrşünas-tənqidçi**

***Bu gün cox az rast gəldiyimiz ancaq daha dolğun və konkret fikir formalaşdırmağa qadir olan Poetik esse ədəbiyyatın bir növü, həm estetik, həm də düşüncənin ifadə olunduğu bir yazı forması olaraq hər zaman maraqla oxunur. Əslində bu esse növü, daha çox şəxsi düşüncələr, duyğular və təəssüratların ifadə edildiyi, bəzən bədii üslubla yazılmış məqalələr toplusuna da aid edilir. Poetik esse yazan şəxs, adətən, mətnin strukturu və ifadə forması üzərində xüsusi bir diqqət yetirməklə dilin zənginliyindən eləcə də təsvirlərin qüvvəsindən daha ustalıqla istifadə etməyə müvəffəq ola bilir. Elə bu gün söhbət açacağım gənc yazar Vaqif Əmiraslanın qələmə aldığı Molla Pənah Vaqifə ünvanlanan "Cənnətin sahiblərinə" poetik essesində olduğu kimi.***

Poetik essenin xüsusiyyətləri haqqında danışarkən duyğusal və estetik ifadə vasitələrinin zənginliyi əsas şərt olaraq təqdim edilməklə müəllifin fikir aydınlığının daha çox duyğu və estetik təəssüratları çatdırmağa əslində isə onu daha duyğusal formada təqdim etməyə istiqamətləndirmiş olur. Məhz haqqında danışaçağım poetik essenin müəllifi isə təqdimatında bu kimi amilləri əsas şərt olaraq ifadə etməyi bacarır.

**O, yazır: " Salam olsun, qəlbləri fəth edən şairə,**
**Müdrik, dahi, ulu Molla Pənah Vaqifə!**
**Ey səkkiz hecalı misraları sevən şairim,**
**Ey səkkiz onillik ömür sürən şairim!**
**Sənə ünvanlanan məktubda şeirə dönür,**
**Nəsrli cümlələr dildən nəzmlə tökülür.**
**Şair düzdür ki, Cənnətin səkkiz qapısı vardır?**
**Bəlkə ona görə Şuşa ölkəmizin cənnəti sayılır. "**

Qeyd etmək lazımdır ki, bu esse türündə yazıçı oxucusunu yalnız məlumatlandırmağa deyil, həm də onunla daha maraqlı formada dil və üslub baxımından dolğun bir şəkildə emosional bağ qurmağa çalışır. Qeyd etmək lazımdır ki, şəxsi düşüncələr cox zaman poetik essedə müəllifin şəxsi təcrübə və dünyagörüşünə əsaslanır. Yazar burada öz dünyasını, fikirlərini və hisslərini təqdim etməyə çalışır. Məhz bu baxımdan Vaqif Əmiraslan bir daha diqqəti cəlb etməklə bu kimi amilləri xüsusi olaraq nəzərə almaqla daha dolğun şəkildə təqdim etməyə müvəffəq ola bilir.



Həmçinin qeyd etmək lazımdır ki, Şuşa şəhərinin "səkkiz" rəqəmi ilə bağlılığı barədə danışarkən, bu rəqəmin Şuşa tarixində, mədəniyyətində və rəmzi mənasında müxtəlif maraqlı təzahürləri müşahidə olunur. Bu əlaqə həm simvolik, həm də konkret tarixi faktlara əsaslanır. Bu kimi amillər poetik essedə müəllif təxəyyül və düşüncəsinin maraqlı ştrixləri ilə oxucusuna böyük ustalıqla təqdim edilə bilir.

**Belə ki; " Sanki bu şəhərin bir sehri, dərin bir mənası var,**
**Şuşamızın səkkiz rəqəmi ilə bir əlaqəsi var.**
**Bundan söz açacağam sənə bu məktubda,**
**Oxu, cənnətin sahibi şəhidlərimiz dinləsin orda.**
**Sənə layiq üslubda, məqbul bir tonda,**
**Sonsuz körpülər salacağam, zəfər tarixindən bəhs edən yolda."**

Burada xüsusi olaraq bədii dil və üslub formasına nəzər yetirdikdə qeyd etmək lazımdır ki, "Cənnətin sahiblərinə" poetik essesində adətən, sadə dilə deyil, bədii ifadələrə, metaforalara, simvollara eləcə də digər poetik vasitələrə müraciət edilmə forması da maraqla oxunur. Bu kimi oxucunu dinlətmə gücü həm də yazının daha incə və zərif olmasına böyük həssaslıqla yanaşılması səbəb ola bilir.

Səkkiz rəqəmi çox mədəniyyətlərdə rəmzi mənalar daşıyır. Sonsuzluq işarəsi (?) - səkkiz rəqəminin çevrilmiş formada sonsuzluq mənasını özündə ehtiva edir. Bu mənada, Şuşanın əbədi mədəniyyət mərkəzi, ölməz şəhər obrazı ilə səsləşir. Həmçinin təkrarlanma və güc səkkiz rəqəmi vasitəsilə güc, sabitlik və davamlılıq anlamını daşıyır. Bu mənada "Şuşa və səkkiz" əlaqəsi - Şuşanın tarixdə və gələcəkdə daimi yaşayacağı, sarsılmaz qala olacağı mesajını da verir. Bütün bu sadalananlar isə "Cənnətin sahiblərinə" poetik essesində daha dolğun formada ifadə vasitəsinə çevrilməklə oxucusuna maraqla təqdim edilə bilir.

Bədii elementlər poetik esse müəllifinin yazı üslubunda daha çox musiqi kimi ritm, ahəng və təsvirlərin gücü olaraq dolğun bir formada önəm daşıyır. Xüsusi olaraq yazı həm təsvir etməli, həm də oxucunun ruhuna daha çox təsir etməyi bacarmalıdır. Bu baxımdan müəllifin yazı üslubunda bu kimi amillərə diqqət yetirməklə daha maraqla oxunmasına şərait yaratmışdır. Onun fəlsəfi aspektlərində bəzən poetik ifadə formaları həm də fəlsəfi düşüncənin bir parçasının dərinliklərini daşıya bilir. Bununla da yazar, həyatın mənası, mövcudluq, sevgi, zaman və s. kimi geniş mövzulara toxunaraq, oxucuya yeni bir baxış açısı təqdim etməyə müvəffəq olur.

**Bu məqamda müəllif yazır:**
**" Sən ki, Şuşanın səkkiz böyük nəslindən biri,**
**Sən ki, Şuşanın igid sərkərdəsi, böyük ədibi,**
**Danışım sənə xan qızı Natavan şeirlərindən,**
**Üzeyir Hacıbəylinin müqəddəs bəstələrindən.**
**Danışım, Əbdürrəhim və Firudin bəylərin qırılmaz qələmlərindən,**
**Seyidin, Xanın, Bülbülün səsindən,**
**Möminindən, ədibindən, memarından, şairindən,**
**Muğamından, aşığından, atlarının yaraşığından. "**

Poetik essedə xüsusi olaraq diqqəti çəkən əsas məqamlardan biri isə məhz Şuşamızda doğulub boya-başa çatan mədəniyyət tariximizin şəxsiyyətlərinin şəcərə tarixçəsinin sayında da maraqlı uyğunluqların məhz yenə də səkkiz rəqəmi ilə bağlılığıdır. Müəllif poetik essesində bu kimi faktlara xüsusi həssaslıqla yanaşmaqla özünün maraqlı söz büsatını dilə gətirə bilir.

Həmçinin qeyd etmək lazımdır ki, müəllif Vaqif Əmiraslan xüsusi olaraq natura haqqında düşüncələri böyük ustalıqla təqdim etməklə təbiətin gözəlliyindən ilham alaraq, onu bir metafora kimi istifadə etməklə diqqət mərkəzində saxlaya bilir. Burada həmçinin insanın daxili aləmi öz daxili dünyasına, psixologiyasına, duyğularına dair dərin bir təhlil də maraqlı detallarla təqdim edilir. Xatirələr və vaxt eləcə də keçmişə dair xatirələr, zaman sürəti və ya onun dəyişməsi kimi mövzular da müəllif qələminin incə ştrixlərində daha dolğun şəkildə oxunur.

O, yazır: " Cənnətindən qovulan mələklər kimi,
Yarından ayrılan ürəklər kimi,
Qoparmışdılar Şuşadan millətimizi,
Alçaltmaq istəmişdilər, ləyaqətimizi. "

Bu məqamda xüsusi olaraq qeyd etmək lazımdır ki, Vaqif Əmiraslanın qələmə aldığı "Cənnətin sahiblərinə" poetik essesi həm bədii, həm də düşüncəli bir yazı nümunəsi olması baxımından şəxsi dünyasının maraqlı detalları qədər oxucusuna fərqli bir şəkildə təqdim edilməsinə imkan verir.




# Avtobioqrafik xırdalıqlar

***Mən Yardımlı elinin "Bəylər kəndi" kimi tanınan Gilar kəndində 26 mart 1937-ci ildə Sultanlı ailəsində doğulmuşam. Avtobioqrafiyam təkcə uğurlarımdan ibarət deyildir. Bu, həm də həyat yolumda başıma gələnlərin, rastlaşdıqlarımın kiçicik bir hissəsini əhatə edir. Onlardan vaz keçib yalnız uğurlarımdan danışmaqdan da vaz keçirəm.***

**(Əvvəli ötən saylarımızda)**

Məqalələrimi, pullarımı, paltarlarımı, ayaqqabılarımı, müdafiəyə hazırladığım dissertasiyamı, Moskvada zəngin faktlar özülündə yazdığım dəftərimi də sel apardı. Bir neçə gündən sonra Moskvaya teleqram göndərib başıma gələnləri, müzakirəyə gələ bilməyəcəyimi Elmi Şuraya bildirdim. Məni işə götürməsi üçün yanvar ayında ikinci kursda oxuyarkən optika fənnindən müəllimim olmuş Azərbaycan Dövlət universitetinin rektoru Mehdi Əliyevə müraciət etdim. O, spektroskopiya sahəsində ixtisaslaşmış olduğuma görə məni kimya fakultəsinə laborant vəzifəsinə qəbul etdi.

O vaxtlar kimyəvi maddələrin molekul quruluşunu spektral yolla öyrənilməsi sahəsi aktual idi. Bu sahədə Bakıda mütəxəssis də demək olar, yox dərəcəsində idi. Ancaq çox sarsılmışdım, dissertasiya işinə yenidən başlamaq üçün Bakıda lazımi şərait yox idi. İşləsəydim, şəraiti də özüm yaratmalı idim. Başıma gələnləri isə, heç kimə demirdim, desəydim, bədöv adamları bu işlə məşğul olmağıma mümkün qədər imkan verməyəcəklərini öncədən bilirdim. Hamı dissertasiya işimin hazır olduğunu bilirdi, müdafiə vaxtımla demək olar, hər gün maraqlanırdılar. Çox gərgin durumda idim, mənəvi cəhətdən sıxılırdım, Bununla, işin bərpası mümkün olan bölümünü bərpa etməli, olmayanını isə yenidən işləməli idim. Özlüyümdə bu yolu tutmaq, mütləq elmi ad almaq qərarına gəlmişdim. Başqa bir variantın seçilməsini qəbul etməyi ağlıma sığışdırmırdım. Ancaq ağlasığmaz dərəcə təqiblərlə, əngəllərlə üzləşməli olacağımı da bilirdim. Bunlarla yanaşı, iradəm də, qətiyyətim də tükənmirdi. Bunun sayəsində sel aparmış dissertasiyamın bir hissəsini qısa müddətdə bərpa edə bildim.

Maddələrin kristal quruluşunun araşdırılması sahəsində dünyanın aparıcı alimlərindən sayılan Xudu Məmməd, bir də onun şagirdi fizika-riyaziyyat elmləri namizədi, rentgen quruluş analizi sahəsində tanınmış mütəxəssis Anatoli Nikolayeviç Şnulinin rəhbərliyi altında bir sıra üzvi maddələrin kristal quruluşunun öyrənilməsinə aid eksperimentlər qoyub yeni nəticələr aldım. Onların rəhbərliyi altında yenidən dissertasiya yazdım. Hazırladığım birinci dissertasiyam bəzi üzvi maddələrin üzvi həlledicilərlə hidrogen rabitəsinin spektroskopiya üsulu ilə öyrənilməsinə həsr edilmişdi. Ancaq bu işdə rentgen quruluş analizi tətbiqinin lazım olduğu məsələlər də var idi. Ona görə də ikinci dissertasiyamda həmin məsələlərin həll edilməsini ikinci dissertasiyamın zəruri hissəsi kimi Xudu müəllimə qəbul etdirə bildim.

1972-ci ildə dissertasiya işimin artıq müdafiəyə hazır olduğunu görkəmli alimlərimiz Akademik Əli Quliyevlə professor Xudu Məmmədova bildirdim. Onlar Gürcüstan Sovet Sosialist Respublikası Elmlər Akademiyasının Akademiki Tsitişvili ilə əlaqə saxlayıb mənim dissertasiya müdafiə etməyimi təşkil etməyi xahiş etdilər. Sonra hər ikisi bir-birindən xəbərsiz Tiflis şəhərinə, Tsitişvilinin yanına getməyimi məsləhət bildilər. Getdim, gürcüstan alimi müdafiə şurasının üzvü olduğu Tiflis Dövlət universitetində həll etdi, məni müdafiı şurası sədrinin yanına göndərdi. Professor məni qarşıladı, indiki BDU-da professor Cümşüd Zülfüqarlı ilə 40-cı illərdən dostluq etdiyini, onu tanıyıb-tanımadığımı soruşdu, bir-iki günə işin müzakirəsini, avtoreferatın buraxılmasını təçkil edəcəyinə söz verdi. Dediyi vaxtda müzakirəni Tsitişvilinin iştirakı ilə təşkil etdi Çıxış edənlər işi müdafiəyə buraxmaq qərarı çıxartdılar. Bununla, sədr bir gün bundan sonra avtoreferatın buraxılma tarixini müəmmalı şəkildə bir ay sonraya saxladı. Dediyi vaxtda onun yanına getdim. Ancaq o, mənim dissertasiyamın Tbilisi universitetinin müdafiə şurasına uyğun olmadığını bildirdi. Qəbul olunmuş qərarın dəyişdirilmə səbəbini soruşdum, deməsinə çox təkid etdim, onu baça düşəcəyimi bildirdim. Professor onun deyəcəyini heç kəsə deməyəcəyimə kişi kimi söz verməyimi istədi, mən də buna söz verdim. O, dedi: "Cümşüd İsmayıloviçlə telefonla danışdım, o, həmin dissertasiyanın BDU-da müzakirə edilmədiyini (BDU-da keçirilən müzakirə protokolu, rektorun məktubu işdə var idi - B.S.), müdafiə olunduğu təqdirdə ciddi qalmaqal baş verəcəyini dedi". Professor dedi "mən Cümşüd İsmayıloviçi yaxşı tanıyıram...".

Bu "məhvedici" zərbənin sarsıntısını keçirmək mənim üçün çox ağır keçdi. Professor Cümşüd Zülfüqarlı rüşvət almayan, dosda dost, düşmənə düşmən kimi baxan, böyük dünyagörüşə, hüquq biliklərunə, güclü iradəçilik bacarığına malik bir insan idi. Tabeçiliyində olanlardan, onunla ünsiyyətdə, təmasda olanardan həmişə sayghı istəyərdi, istəyərdi, onu saysınlar, hər işi onunla məsləhətlşsinlər, ona demədən bir addım belə, atmasınlar, onun sözünə danışıqsız əməl etsinlər. Bunu normal hal kimi də qəbul etmək olardı. Ancaq bu, insanın müstəqilliyini məhdudlaşdırırdı, sərbəstliyini əlindən alırdı. Doğrusu mən qanunlara, mənəvi dəyərlərə əməl etməyi, ancaq müstəqil olmağı üstün tutan idim. Müstəqilliyi, sərbəstliyi itirəndə hansısa bir iş görmək mənim üçün çətin olurdu. Ona görə də müəllimin "qəlibi"nə sığa bilmirdim. Cümşüd müəllim isə belə təbiətli adamlarla barışmırdı, elələrini susdurmağa, məhv etməyə onun gücü çatırdı. Bu "qəlibə" sığmayanlar onun qəzəbinə tuş gəlirdi. Belə adamlar çox idi. Mən də bu qəzəbə tuş gələnlərdən idim, ancaq nə təslim olmurdum, nə də nəyə isə güzəştə getmirdim. 1972-ci ilin iyun ayı idi dissertasiya işimdə lazım gəlmiş əlavə işlərin yerinə yetirilməsi üçün Leninqradşəhərində işləməyimə ehtiyac yaranmışdı. Ona görə uzun müddət Leninqradda işləməyim lazım idi.

### Siyasi çalışmalarım

Sovet imperiyasının qəddarlığı, amansızlığı uşaq çağlarımdan qəlbimdə ona nifrət, kin, etimadsızlıq yaratmışdı. Ona görə də ovqatım onun bu əməllərini izləmək, dərk etmək istiqamətinə köklənmişdi. Körpə uşaqların Atasını əsassız yerə güllələyib özlərini sürgün etməyin yalnız amansızlıq, qəddarlıq olduğunu anlaya bilirdim. Bu amansızlığın, bu boyda qəddarlığın sirrini anlaya bilmirdim. Həm də nə atamın güllələnməsini, nə də özümüzün sürgün olunmağımızı heç yerdə danışmırdım, heç kimə demirdim. O çağlar bunları harada isə danışsaydım, kimə isə desəydim, başıma nələr gələcəyini, ailəmizin nələrlə üzləşəcəyini indinin özündə də təsəvvürümə gətirirəm. Mən tələbə idim, Bakı şəhərində təhsil alırdım. Məhdud kənd mühitindən geniş şəhər mühitinə düşmüşdüm. Burada imperiyanın məkirli niyyətləri daha qabarıq nəzərə çarpırdı: küçələr dilə yatmayan, məntiqə sığmayan, yerli milləti alçaltmaq, təhqir etmək məqsədi daşıyan adlarla adlandırılmışdı; qəsəbələrə, rayonlara, məktəblərə, xəstəxanalara, fabriklərə, zavodlara, kolxozlara, sovxozlara... belə dolaşıqbulaşıq adlar verilmişdi. Bu adlar arasında erməni adlarının çəkisi daha böyük idi. İdarələrdə, müəssisələrdə rəhbər vəzifələrdə ruslar, ermənilər... Dükanlarda, ictimai-iaşə obyektlərində, sənətcillik müəssisələrində ruslar, ermənilər... Hər yerdə səlahiyyət sahibləri ruslar, ermənilər... Hər yerdə haqqı tapdananlar, işləri əngəllənənlər, ağır işlərdə, zəhərli sexlərdə çalışanlar, sözü eşidilməyənlər, adi bir işdən ötrü get-gələ salınanlar, incidilənlər, rədd edilənlər... yerli millətin nümayəndələri... Şəhərin mərkəzində yaşayanlar ruslar, ermənilər... Ev kirəyə verənlər ruslar, ermənilər... Rus evlərində, erməni evlərində... yaşayanlar yerli millətin nümayəndələri... Dövlətdən 2-3 ilə mənzil almaq imtiyazı olanlar ruslar, ermənilər... 15-20 il müddətinə mənzil növbəsinə durmağa məhkum edilmişlər, mənzil bölgüsündə hüququ pozulanlar yerli millətin nümayəndələri... Rüşvət alan ruslar, ermənilər... Rüşvət verməyə təhrik edilən yerli millətin nümayəndələri... Hər yerdə hakim rus dili, məhkum yerli millətin dili. Hər yerdə rus dili işləndiyinə görə hamı çalışır rus dilində danışsın. Rus dilində danışa bilməyənə yabançı münasibət göstərilir, onlar alçaldılır, ələ salınır... Ruslarla, ermənilərlə... qohumluq əlaqəsi olmayanlara, onların "etibarını qazanmayan"lara etibar edilmir... Bunlar imperiya zəncirinin ayrı-ayrı halqalari idi, həm də onu göstərirdi, biz əzazil, rəhimsiz, məkirli bir imperiyanın tələsinə düşmüşük, bu tələdə çabalayırıq.

Uşaq çağlarımda kənd mühitində eşitdiklərimlə, gördüklərimlə geniş şəhər mühitində eşitdiklərim, gördüklərim arasında əlaqə axtarıb tapırdım, çıxış yolu arayırdım, qənaətlərə gəlirdim. Tələbəlik illərimdə imperiya xislətı ilə bağlı gördüklərimi, duyduqlarımı incələyirdim, münasibətlərimi ortaya çıxardır, ayırdığım xüsusi dəftərə köçürürdüm. O zamanlar rus-sovet imperiyasının quldur təbiəti, zülm, istismar maşını olduğu, işlərini hiylə, məkr üzərində qurduğu, şovinist daxili siyasəti ilə bağlı duyduğum hər şeyi izləməyə çalışırdım. Yazı sürətim çox zəif, xəttim isə qolay idi. Bir səhifəlik yazını bir saata yazırdım. Ona görə də yazmaq mənim üçün həm də işgəncə idi.



**Bəhmən SULTANLI**

Aspiranturaya daxil olduğum 1964-ci ilin dekabrında Moskvaya gedən zaman imperiyanın xislətinə aid yazdığım dəftərin mühafizəsi qarşısına çıxan ən böyük çətinlik oldu. Düşündüm, dəftəri özümlə aparsam, ələ keçə bilər, onda özüm həbs olunaram, cəzamın üstünə "Xalq düşməni"nin, "Əksinqilabçı"nın oğlu olmağımın da cəzası gələr, eləmək istədiyimin hamısı puç olar, kənddə də ailəmiz bir daha təqib olunar, gözümçıxdıya salınar, diligödəkliyə, gözüqıpıqlığa məruz qalar. Aparıb kənddə qoymuş olsam, dəftər ələ keçə bilər, ələ keçsə, ailəmizin "xalq düşməni"nin, "əksinqilabçı"nın ailəsi olduğu sübut olunar, özüm də axtarılıb tapılaram, ağır maddə ilə həbs olunaram. Şəhərdə dəftəri etibar edə biləcəyim adamım da yox idi. Ona görə də iki yol ayrıcında qalmışdım: ya elmdən, ya da dəftərdən əl çəkməli idim. Günlərcə ac qala-qala, daim ehtiyac içində yaşaya-yaşaya, maddi ehtiyaclar məngənəsində sıxıntılara tab gətirə-gətirə, anamdan ötrü daim nigarançılıq keçirə-keçirə, təqiblərə, təzyiqlərə sinə gərə-gərə elə bir ağır fakültəni bitirmişdim... İtirəcəklərimlə qazanacaqlarımı tutuşdurdum. Fizika elmi ilə məşğul olmaq, bu möhtəşəm elm sahəsində elmi ad almaq ən böyük arzularımdan idi. Bir də, düşünürdüm, elmi adım olsa, mənə qarşı təqiblər, təzyiqlər də zəifləyər, siyasi təhlükəsizliyim üçün özül yaranar. Buna görə elm dalınca getməyi o şəraitdə dəftərin mühafizəsindən üstün tutdum.

**(Ardı var)**